QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 222 (6186) 11 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Azərbaycanın və Türkiyənin birinci xanımlarının görüşü olub



Bax 11

## "Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, Azərbaycanın dəmir yumruğu onların belini qıracaq"



Bax 2

*Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər*

### Türkiyə telekanalları Bakıda keçirilən Zəfər paradını canlı yayımlayıblar

Bax 11




*Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı Türkiyə telekanalları tərəfindən canlı yayımla nümayiş...*

## Tahir Rzayev: Vətən yolunda şəhidlik zirvəsinə ucalanlar və əlil olan şəxslər hər birimiz üçün əziz və qiymətlidir



*"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanına əsasən şəhid ailələrinə və qazilərə dəstək məqsədi ilə yaradılan "YAŞAT" Fondu dövlətimizin başçısının humanist prinsiplərə sadiqliyinin, torpaqlarımızın azadlığı uğrunda şəhid olan və fiziki sağlamlığını itirən insanlara qayğı və diqqətin təzahürüdür". Bu fikirləri yap.org.az saytına Milli Məclisin Aqrar siyasət komitəsinin sədri...*

Bax 13

## Türkiyə ilə Azərbaycan arasında birbaşa səfər artıq şəxsiyyət vəsiqəsi ilə həyata keçiriləcək



Bax 10

*Dekabrın 10-da Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azadetmə haqqında 2020-ci il 25 fevral tarixində Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Hökuməti...*

## İqor Korotçenko: Azərbaycan onun maraqlarına yenidən qəsd etmək cəhdlərinin qarşısını birdəfəlik almalıdır

Bax 11

*Hərbi ekspert, "Natsionalnaya Oborona" (Milli Müdafiə) jurnalının baş redaktoru İqor Korotçenko Bakıda ənənəvi keçirilən ADEX Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə bağlı müsahibə verib...*



### Onlayn təhsilin uşaqlarda yaratdığı psixoloji təsirlər



Bax 16

### Ucuz erməni təfəkkürü: növbəti müharibə ritorikası Ermənistanı məhv edə bilər



Bax 14

### Maradonanın qohumları onun 40 milyon avroluq mirası üçün savaşır...



Bax 16

# "Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, Azərbaycanın dəmir yumruğu onların belini qıracaq"

*Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər*

***Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.***



"Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına müdafiə nazirinin müavini, "Zəfər" ordenli general-leytenant Kərim Vəliyev komandanlıq edib.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi. Hərbi orkestr "Azərbaycan fanfarası"nı ifa etdi.






**_İlham Əliyev:_ Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi**

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verdi.

Dövlət başçıları əsgərləri salamladılar. Hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Əziz hərbçilər.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

İlk növbədə, xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilsin.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir.

Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi.

Ardı Səh. 3

# “Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, Azərbaycanın dəmir yumruğu onların belini qıracaq”

## *Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər*







> *Rəcəb Tayyib Ərdoğan:* **Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir**

Əvvəli Səh. 2

Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk.

Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.

Azərbaycan əraziləri 30 ilə yaxın işğal altında idi. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olmuşdu. Əslində, Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlərboyu yaşayıb, ancaq Ermənistan rəhbərliyi o vaxt 100 minlərlə azərbaycanlını öz doğma torpaqlarından didərgin salmışdır. Ondan sonra Dağlıq Qarabağda eyni mənzərə müşahidə olunurdu, Ermənistan tərəfi zor gücü ilə Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayət törətmişdir, Xocalı soyqırımını törətmişdir. Ondan sonra 1992-ci ilin may ayında Şuşa şəhərinin və Laçın şəhərinin işğala məruz qalması Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdı. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğal altına düşməsi bizim vəziyyətimizi daha da ağırlaşdırdı və faktiki olaraq sonrakı işğalçılıq siyasətinin davam etdirilməsinə səbəb oldu.

Biz uzun illər bütün beynəlxalq tədbirlərdə bu məsələ ilə bağlı həqiqətləri çatdırırdıq, böyük iş aparılmışdır və bu işin səmərəsi oldu. Baxmayaraq ki, biz ərazi bütövlüyümüzü döyüş meydanında qazandıq, hesab edirəm ki, son illər ərzində apardığımız siyasi və diplomatik səylər öz bəhrəsini verdi, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar Azərbaycanın haqq işini dəstəklədi. Beləliklə münaqişənin həlli üçün hüquqi zəmin yaradılmışdır. Eyni zamanda, bizim məqsədyönlü səylərimiz nəticəsində münaqişə ilə bağlı, Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumat çatdırıldı, Ermənistanın yalançı təbliğatına son qoyuldu və bütün dünya gördü ki, Qarabağ bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqlarda yaşayıb, qurub-yaradıb, eyni zamanda, bütün dünya görüb ki, beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, biz ordumuzu gücləndirirdik. Bunun nəticəsində Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmişdir və ildən-ilə bizim üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik. Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi.

Ardı Səh. 4

# “Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, Azərbaycanın dəmir yumruğu onların belini qıracaq”

*Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər*

Əvvəli Səh. 3

Biz dünyada gedən prosesləri diqqətlə izləyirdik və görürdük ki, son illərdə beynəlxalq hüquq və prinsiplər kobudcasına pozulur. Bəzi ölkələr güc tətbiq edərək öz məqsədlərinə çatırlar, beynəlxalq hüquq kağızda qalır, BMT Təhlükəsizlik Şurasının qətnamələri kağızda qalır. Belə olan halda münaqişənin hərbi yollarla həll edilməsi qaçılmaz idi. Bundan əlavə, son illər ərzində, xüsusilə son 2 il ərzində Ermənistanın təxribatçı addımları, bəyanatları, hərəkətləri müharibəni qaçılmaz etmişdi. Ermənistan rəhbərliyinin çox zərərli və təhlükəli bəyanatları demək olar ki, danışıqlara son qoymuşdu. “Qarabağ Ermənistandır” deməklə Ermənistan rəhbərliyi danışıqlara son qoymuşdu. Bizim tarixi torpaqlarımızda xaricdən gətirilmiş ermənilərin məskunlaşdırmaq hərbi cinayətdir, beynəlxalq konvensiyalara ziddir. Bu, faktiki olaraq danışıqlara son qoyurdu, danışıqları mənasız edirdi və biz arasında itkilər olmuşdur. Biz dedik yetər artıq, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Mən Ali Baş Komandan kimi əmr verdim ki, Azərbaycan əsgəri irəli, torpağımızı azad etməliyik, işğala son qoymalıyıq, işğalçını cəzalandırmalıyıq və belə də oldu. Azərbaycan 44 gün ərzində istədiyinə nail oldu, ədaləti bərpa etdi.

Bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkiləк. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik. Bu istehkamlar elə qurulmuşdu ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda, Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi. Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi.








bunu görürdük, hiss edirdik və öz sözümüzü beynəlxalq kürsülərdən dünya ictimaiyyətinə çatdırırdıq. Bu ilin sentyabr ayında, müharibəyə 3 gün qalmış mən BMT Baş Assambleyasının kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Belə də oldu və bu il bizə qarşı 3 dəfə hərbi təxribat törədildi. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədində hərbi təxribat törədildi və Ermənistan bizim torpaqlarımızı işğal etmək istədi. Amma biz layiqli cavab verərək onları yerinə oturtduq. Avqust ayında Azərbaycana diversiya qrupu göndərildi. O diversiya qrupu da zərərsizləşdirildi. Nəhayət sentyabrın 27-də bizim kəndlərimiz, hərbi mövqelərimiz artilleriya atəşinə məruz qalmışdır, mülki şəxslər, hərbçilər Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda, Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı.

**_İlham Əliyev:_ Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!**

Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad edilən sonuncu şəhər oldu. Şuşa işğaldan azad ediləndən sonra düşmənin beli qırıldı, düşmən təslim olmağa məcbur qaldı. Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı. Ondan bir gün sonra daha 70 kənd işğalçılardan azad edildi və Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi. Biz Ermənistanı döyüş meydanında məhv etdik. Biz ermənilərin uzun illər yaratdıqları mifi darmadağın etdik. Onlar öz ordusu haqqında yalan məlumat ötürərək mif yaratmışdılar, guya Ermənistan ordusu yenilməz ordudur. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi.

Mən demişəm ki, biz güc toplayırıq və bu gücü toplamışıq. Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda, milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Bu, onu göstərir ki, biz müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanmışıq. Halbuki bir çoxları, xüsusilə bu məsələ ilə məşğul olan vasitəçilər dəfələrlə demişdilər ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz sübut etdik ki, münaqişənin hərbi həlli var. Əks-təqdirdə, bu nə hərb, nə sülh vəziyyəti bundan sonra da 30 il davam edə bilərdi.

Ardı Səh. 5

# "Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, Azərbaycanın dəmir yumruğu onların belini qıracaq"

*Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər*

**Əvvəli Səh. 4**

Biz buna nə qədər dözə bilərdik? Biz nə qədər səbir göstərə bilərdik? Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqının səbri tükənib və əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz onları oradan qovacağıq, onlar rədd olmalıdırlar bizim torpaqlarımızdan! Mən bunu müharibədən əvvəl və müharibə dövründə demişəm, xalqa müraciətlərimdə demişəm, xarici mətbu orqanlara verdiyim müsahibələrdə demişəm. Demişəm ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə rədd olmalıdır, etiraf etməlidir və çıxmalıdır. Əks-təqdirdə sona qədər gedəcəyik və sona qədər getdik. Ona görə biz döyüş meydanında qələbə qazandıq. Ondan sonra, siyasi müstəvidə qələbə qazandıq, düşməni məcbur etdik ki, Kəlbəcər, Laçın və Ağdam rayonlarını azad etsin və bizim torpaqlarımızı tərk etsin.



Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq.

İndi isə bizim üçün yeni dövr başlayır - quruculuq dövrü. Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib. Bu məlumat artıq hər kəsdə var, videogörüntülər var. Azad edilmiş ərazilərə mənim səfərlərim bunu göstərir. Bütün binalar, bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır.

Mən bir daha Azərbaycan xalqının qəhrəmanlığını dilə gətirmək istəyirəm. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə qarşı hərbi cinayətlər törədib, bizim şəhərlərimizi ballistik raketlərlə, fosforlu bombalarla, kasetli bombalarla atəşə tutub. Bu namərd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki, o evlərə ziyan vurulub. Ancaq Azərbaycan vətəndaşı öz torpağından bir addım geri atmayıb. Deyirdilər ki, öldü var, döndü yoxdur, sona qədər gedəcəyik. Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik.

Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Mən demişəm ki, bizim hər birimiz bu işdə fəal olmalıyıq. Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik. Bizim iradəmiz də var, imkanlarımız da var.

Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik.

Öz çıxışımı məşhur kəlamla yekunlaşdırmaq istərdim. Hər kəs bilir ki, Ermənistan rəhbərliyi bir il bundan əvvəl demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Mən isə demişdim ki, "Qarabağ Azərbaycandır və nida". Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!

X X X

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı

- Hörmətli cənab Prezident, əziz Qardaşım.

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman şəxsi heyəti.

Azərbaycanlı can qardaşlarım.

Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə, hörmətlə salamlayıram.

Bu Zəfər Gününüzdə sizlərlə birlikdə olmaqdan böyük məmnunluq duyuruq.

Qardaşım İlham Əliyevə bu yüksək dəvəti və qonaqpərvərliyi üçün təşəkkürümü bildirirəm.

Azərbaycanın 44 gün davam edən şanlı mübarizəsində şəhid olan igidlərə Uca Allahdan rəhmət, qazilərimizə tezliklə sağalmalarını arzulayıram.

Şair Bəxtiyar Vahabzadənin dediyi kimi:

Hardan sənin oldu bizim Qarabağ?

Adı sahibini demirmi aşkar?

Xoşluqla verməzlər torpağı, ancaq

Qanla möhürləyib, zorla alarlar.

xxx

İsa bulağının zümzüməsini,

Cabbarın, Seyidin, Xanın səsini,

Dalğalı Qarabağ şikəstəsini,

Babək türbəsini necə pay verim?

Qarabağı otuz illik həsrətdən sonra Ana Vətən ilə qovuşduran Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edir, onları dualarla cəbhəyə göndərən anaların əllərindən öpürəm.



20 Yanvarda şəhidlərin məzarları üzərinə qoyulan qərənfillər müstəqilliyi necə xatırladırsa, indi də Dağlıq Qarabağ bölgəsinə xas olan Xarı Bülbül Azərbaycan torpaqlarının azadlığının rəmzinə çevrilmişdir.

Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir. Fürsətdən istifadə edərək güclü Azərbaycanın əsasını qoyan ümummilli lider Heydər Əliyevi də burada rəhmətlə yad edirəm. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah, dastan yazmaqda davam edəcək.

Hörmətli Qardaşım, əziz Azərbaycan xalqı. Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq.

Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir. Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir. Otuz illik işğal müddətində bu bölgələrin viranəyə çevrildiyini, daş üstündə daş qalmadığını hamımız birlikdə gördük. Qardaşım İlham Əliyevin dediyi kimi, Füzuli şəhərində bayraq asmağa belə bina tapılmamışdır. Bütün şəhərlər tarmar edilmiş, bütün kəndlər yerlə-yeksan olunmuş, məzarlıqlar belə dağıdılmışdır. Məscidlər dağıdılmış, minarələr eynilə tarmar olmuşdur. Ermənilər hər şeyi məhv etdikləri kimi, tarixi və mədəni abidələri də, təbii sərvətləri də qarət etdilər. Bütün bu ziyanın hesabı sorulmalıdır.

Müharibə zamanı Gəncə, Tərtər, Ağdam, Bərdə, Ağcabədi kimi Azərbaycan torpaqları da hədəfə alınmışdır. Yüz məsum mülki şəxs şəhid edilib, analar balasız, uşaqlar atasız-anasız qalmışdır. Hücumlar nəticəsində 416 qardaşımız da yaralanmışdır. Müharibə qanunları kobud şəkildə pozulub, insanlıq şərəfi ayaqlar altına atılıb. Bunları görməzliyə vuranların gözləri kimi vicdanları da kor olmuşdur. Hər məcrada bunun hesabını sormalıyıq.

İllərdir doğulduqları yerlərdən uzaq qalaraq, yurd həsrəti ilə alışıb yanan bir milyon qaçqın və məcburi köçkün qardaşımız doğulduqları torpaqlara qayıdacaqlarını səbirsizliklə gözləyir. İnşallah, bu qardaşlarımızın həsrətinin ən qısa vaxtda sona çatacağına inanırıq.

**Ardı Səh. 6**

# "Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, Azərbaycanın dəmir yumruğu onların belini qıracaq"

*Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər*

Əvvəli Səh. 5

Əziz qardaşlarım, Dağlıq Qarabağa fəlakət, qətliam və göz yaşından başqa heç nə gətirməyənlər də artıq ağıllarını başlarına toplamalıdırlar. Ermənistan rəhbərləri xalqın sərvətlərini Azərbaycanın torpaqlarını işğal atında saxlamaq üçün sərf etmişlər. Halbuki bu potensial mənasız müdafiə xətlərinə, silahlara, gözlərini kin və qan tutmuş rəhbərlərin ehtiraslarına sərf edilməsəydi, bu gün mənzərə çox fərqli olardı. Erməni siyasətçilərin bunu çox yaxşı təhlil edib, sülh və sabitlik əsasında gələcəyi qurmaq məsələsində cəsarətli addımlar atmalarını arzu edirik.

Ermənistan xalqının da özlərini keçmişin yalanları ilə ovunduraraq yoxsulluğa məhkum edən diasporun əsarətindən qurtulmasını diləyirik. Qərb imperialistlərinin təhriki ilə bir yerə çatmağın mümkün olmayacağını görməli, düşmənçilik əvəzinə mehriban qonşuluğa əsaslanan əlaqələr yenidən nəzərdən keçirilməlidir. Ermənistan xalqı Qarabağda yaşananlardan dərs götürərsə, bu, bölgədə yeni bir dövrün başlanğıcı olacaqdır.

Qardaşım İlham Əliyev Azərbaycan xalqının yaşadığı bu qədər faciəyə baxmayaraq, dayanıqlı sabitlik üçün təqdirəlayiq bir mövqe ortaya qoymaqdadır. Cənab Prezidentin bu xoşniyyətli cəhdlərini biz də dəstəkləyir, həmsöhbətləri tərəfindən dəyərləndirilməsini arzu edirik.

Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır.

Arazı ayırdılar,
Lil ilə doyurdular.
Mən səndən ayrılmazdım
Zülm ilə ayırdılar.
Ay Laçın, can Laçın,
Mən sənə qurban, Laçın.

Gözəlliyinə qurban olduğumuz Laçın artıq azaddır. Laçın kimi, Şuşa kimi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər də artıq azaddır.

Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür.

Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir. Allah köməyimiz olsun!

Bu düşüncələrlə çıxışımı yekunlaşdırarkən bütün Azərbaycan xalqını, əziz qardaşım Prezident İlham Əliyevi və şanlı Azərbaycan Ordusunu, Türk Ordusunu ürəkdən təbrik edirəm. Əziz şəhidlərimizi bir daha rəhmətlə yad edir, qazilərimizə tezliklə sağalmalarını arzu edirəm. Sağ olun, var olun, Allaha əmanət olun!

X X X

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başladı. Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi.

Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Məmmədovun başçılıq etdiyi döyüş bayraqdarları qrupu Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanına gətirdi.

Sonra Vətən müharibəsində müqəddəs döyüşlərdə əsl qəhrəmanlıq, şücaət, rəşadət və yüksək peşəkarlıq nümunələri göstərərək xalqımıza Böyük Qələbənin sevincini yaşadan Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları tribunanın önündən keçdilər. Üç kolondan ibarət parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edir.

Ardınca Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları birinci dərəcəli kapitan Zaur Quliyevin başçılığı ilə tribuna önündən keçdilər.

Sonra Xarici Kəşfiyyat Xidmətinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət parad heyətləri tribunanın önündən addımladılar. Dövlət Təhlükəsizliyi Xidmətinin parad heyətinə general-mayor Rövşən Muxtarov başçılıq edirdi.

Daha sonra polkovnik Səid İsayevin başçılığı ilə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, polkovnik Taleh Məşədiyevin rəhbərliyi ilə Birinci Ordu Korpusunun döyüşçüləri, polkovnik Nemət Müseyibovun başçılığı ilə İkinci Ordu Korpusunun, polkovnik-leytenant Kamran Ağabalayevin rəhbərliyi ilə Üçüncü Ordu Korpusunun, polkovnik İlham Məmmədovun başçılığı ilə Dördüncü Ordu Korpusunun və polkovnik-leytenant Dəyanət Müslümovun rəhbərliyi ilə Altıncı Ordu Korpusunun hərbi qulluqçuları tribuna önündən keçdilər.

Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları da tribuna önündən mətin addımlarla irəlilədilər. Parad heyətinə polkovnik İsmixan Məmmədov başçılıq edirdi. Zəfər paradında qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçdilər.

Dövlət Sərhəd Xidmətinin parad heyətləri general-mayor Rəsul Tağıyevin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının parad heyəti general-mayor İnqilab Muradovun, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti isə mayor Eldar Quliyevin rəhbərliyi ilə mətin addımlarla Azadlıq meydanına daxil oldular.

Sonra general-mayor Füzuli Salahovun rəhbərliyi ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti, general-mayor Bəkir Orucovun başçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant və zabitlərinin keçidi oldu.

Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları ilk dəfə olaraq Azadlıq meydanında keçirilən paradda iştirak edirdilər. Parad heyəti general-mayor Məhəmməd Həsənovun başçılığı ilə tribuna önündən keçdilər.

Vətən müharibəsində Böyük Qələbəyə həsr olunmuş Zəfər paradını Əməkdar incəsənət xadimi polkovnik-leytenant Rüfət Axundzadənin dirijorluğu ilə birləşmiş hərbi orkestr müşayiət edirdi. Daha sonra hərbi texnikaların keçidi başladı.

Vətən müharibəsində Qələbəyə həsr olunan Zəfər paradına Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri dənizdən dəstək verdi. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz yüksək döyüş hazırlığı nümayiş etdirdi.

"Dəmir yumruq" əməliyyatının - Vətən müharibəsinin qazilərinin Zəfər paradında tribuna önündən keçidi oldu.

Azadlıq meydanına 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Dağlıq Qarabağ ərazisinin əzəli Azərbaycan torpağı olduğu kompozisiyanın üzərinə həkk olunan "Qarabağ Azərbaycandır!" şüarı ilə bir daha bəyan edilib.

Döyüşlərdə qənimət götürülmüş istifadəyə yararlı texnikalar - "KamAZ" markalı avtomobilin qoşqusunda D-30, "Ural" markalı avtomobilin qoşqusunda D-20 topları, qoşqu üzərində zenit qurğuları, "ŞİLKA", "OSA-1T", "KUB" zenit-raket kompleksləri, piyadaların döyüş maşınları (PDM), "T-72" tankları, eləcə də istifadəyə yararsız texnikalar - zirehli "UAZ Patriot", "UAZ Hunter" minik, "ZİL-131", "Ural", "KamAZ" markalı yük avtomobilləri, 122 millimetrlik "Qvozdika" özüyeriyən artilleriya qurğusu, BM-21 "Qrad" qurğuları, PDM-1 və PDM-2 texnikaları, T-72 tankları qəhrəman Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunun əyani təsdiqidir.

Bundan sonra xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu. Kolona "Qarabağ" ordenli general-leytenant Nizam Osmanov başçılıq edirdi.

Azadlıq meydanında keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tank əleyhinə idarə olunan "SPIKE-ER", "NLOS", "LAHAT" raketləri, 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət maşınları, piyada daşıyan zirehli maşınlar, "Kobra" və "BTR-82A" zirehli transportyorları, PDM-2 və PDM-3 texnikaları, "T-72", "T-90S" tankları Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi.

Daha sonra Azadlıq meydanında Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi oldu. Kolona müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı, "Zəfər" ordenli general-leytenant Ramiz Tahirov başçılıq edirdi. Tribuna önündən modernləşdirilmiş "OSA-1T", "S-125 TM", "BUK-MB", "İldırım" zenit-raket komplekslərinin, "S-300 Favorit" sistemlərinin keçidi oldu. Ardınca Vətən müharibəsində Qələbənin əldə edilməsində çox mühüm rol oynayan "Orbiter-1KM" - "İti qovan", "Orbiter-2B", "Orbiter-3B", "Orbiter-4", "Aerostar-BP", "Heron" pilotsuz uçuş aparatları (PUA), eləcə də ən müasir PUA-lar - "Bayraktar-TB2", habelə "Hermes-450", "Hermes-900", "Quzğun" və "Harop" PUA-ları nümayiş olundu.

Ardınca Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu daxil oldu. Kolona "Zəfər" ordenli general-mayor Ağamir Sultanov başçılıq edirdi. Meydanda özüyeriyən haubitsa və artilleriya qurğuları - 152 millimetrlik "Akasiya", 152 millimetrlik "MSTA-S", 203 millimetrlik "Pion", eləcə də 220 millimetrlik "TOS-1A" ağır odsaçan, tank əleyhinə "Xrizantema-S" kompleksləri, "DANA" özüyeriyən top-haubitsaları, "Qrad", "RM-70/85", "BM-21", "Smerç" yaylım atəşli reaktiv sistemləri, "TR-300 Qasırğa", "Ekstra" taktiki, "Polonez" və "LORA" əməliyyat-taktiki raket sistemlərinin keçidi oldu.

Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başladı. "Qarabağ" ordenli polkovnik Həsən Əlövsətovun rəhbərlik etdiyi "Mİ-17" hərbi nəqliyyat-desant helikopterləri cütlüyü Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları ilə Bakı buxtasının üzərindən uçaraq Zəfər paradının iştirakçılarını salamladı. Bunun ardınca Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Rəşad Nadirovun başçılığı ilə "Mİ-35" hücum helikopterləri qrupunun uçuşu oldu. Polkovnik-leytenant Rəhim Quluzadənin başçılığı ilə "LAHAT" və "SPAYK" uzunmənzilli raketləri ilə silahlanmış "Mİ-17" helikopterlərinin və "Qarabağ" ordenli polkovnik Zaur Rüstəmovun rəhbərliyi ilə "MİQ-29" çoxməqsədli qırıcı təyyarələr qruplarının uçuşları da maraqla qarşılandı. Zəfər paradında döyüş təyyarə və helikopterlərinin çıxışını müasir silahlarla təchiz olunmuş "Su-25" hücum və hava dəstək təyyarələr qrupu tamamladı. Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin başçılıq etdiyi qrupun səmada Azərbaycan Respublikasının dövlət bayrağının təsvirini yaratması üçrəngli şanlı bayrağımızın daim yüksəklərdə dalğalanacağını təcəssüm etdirdi.

Vətən müharibəsinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu Zəfər paradı 44 günlük müharibədə Azərbaycan Ordusunun Böyük Qələbəsini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi. "Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən müharibəsində Rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Böyük Qələbə müasir müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin də əyani təsdiqidir.

Yaşasın, müstəqil Azərbaycan Respublikası! Yaşasın, müzəffər Azərbaycan Ordusu! Yaşasın, sarsılmaz və əbədi Azərbaycan-Türkiyə qardaşlığı!

# "Dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr tapılmaz"

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev arasında görüş keçirilib*



***Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dekabrın 10-da rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.***

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı. Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi. Türkiyə Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Təkbətək görüş başa çatandan sonra Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub. Bakı Nəqliyyat Agentliyi ilə "BMC Otomativ Sənaye və Ticarət" şirkəti arasında Anlaşma Protokolunu Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli və "BMC Otomativ Sənaye və Ticarət" şirkətinin İdarə Heyətinin üzvü Taha Öztürk imzaladılar.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi ilə "BMC.AZ" şirkəti arasında Anlaşma Protokolunu Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və "BMC Otomativ Sənaye və Ticarət" şirkətinin İdarə Heyətinin üzvü Taha Öztürk imzaladılar.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Türkiyə Respublikasının Prezidenti yanında İnvestisiya Ofisi arasında Anlaşma Memorandumunu Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və Türkiyə Respublikasının Prezidenti yanında İnvestisiya Ofisinin sədri Burak Dağlıoğlu imzaladılar.



Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev və Türkiyə Respublikası Prezidenti Administrasiyasının ictimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fəxrəddin Altun imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azadetmə haqqında 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında 1 saylı Protokolu Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu imzaladılar.



x x x

Qeyd edək ki, dekabrın 10-da Bakıda keçirilən Qələbə paradı münasibətilə hazırlanan "Zəfər paradı" adlı poçt markası və "Birinci gün" zərfləri dövriyyəyə buraxılacaq. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan zərfləri "Birinci gün" möhürü ilə möhürlədilər.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış edib.

Prezident İlham Əliyevin bəyanatı

-Əziz Qardaşım, hörmətli Cümhurbaşqanı.

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Xoş gəlmisiniz.

Bu gün Türkiyə-Azərbaycan tarixində çox əlamətdar bir gündür, önəmli bir gündür. Bu gün biz birlikdə Zəfər paradını seyr edərkən bir-birimizi təbrik etdik. Bu Zəfər münasibətilə xalqlarımızı təbrik etdik. Bu tarixi Zəfər bizim birliyimizin təcəssümüdür. Türkiyə və onun Cümhurbaşqanı müharibənin ilk saatlarından Azərbaycana, Azərbaycan xalqına öz dəstəyini göstərmişdir. Onun bəyanatları həm Azərbaycan xalqı üçün çox dəyərli, qiymətli idi, eyni zamanda, bütün dünyaya bir mesaj idi ki, Azərbaycan tək deyil, Azərbaycana heç kimsə maneə olmasın, Azərbaycan haqq davasına çıxıbdır, Vətən savaşına çıxıbdır və Türkiyə Azərbaycanın yanındadır. Bu mesaj, əslində, həmrəyliyin bir təcəssümü idi, onu göstərdi ki, Azərbaycan öz haqlı davasında haqlıdır. Biz tarixi ədaləti bərpa etdik. Biz uzun illər sürən işğala son qoyduq. Türkiyə kimi qardaşımızın yanımızda olması bizi daha da ruhlandırırdı, bizə əlavə güc verirdi. Biz gücdən istifadə edərək öz tarixi torpaqlarımızı işğalçılardan azad etdik.

Mən hər zaman əziz Qardaşımı qarşılayarkən, yaxud da ki, qardaş Türkiyədə olarkən deyirdim ki, dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr tapılmaz. Bu, həqiqətdir. Bu gün dünya xəritəsinə baxsaq görərik ki, bizim qədər bir-birinə bağlı olan, bir-birinin hər zaman yanında olan ikinci ölkələr yoxdur.

***Ardı Səh. 8***

# “Dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr tapılmaz”

## *Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev arasında görüş keçirilib*

Əvvəli Səh. 7



Bizi birləşdirən həm ortaq tarix, din, mədəniyyət, dil, ədəbiyyat, eyni zamanda, bizim siyasətimizdir. Türkiyə və Azərbaycan dünya miqyasında müstəqil siyasət yürüdən ölkələrdir. Türkiyənin gücü bizim gücümüzü artırır. Bu gün əziz Qardaşımın liderliyi sayəsində Türkiyə dünya miqyasında güc mərkəzinə çevrilib. Dünyanın bir çox ölkələrində Türkiyə haqqı, ədaləti qoruyur, müdafiə edir. Əzilmiş xalqların maraqlarını müdafiə edir və ədaləti, beynəlxalq hüququ bərpa edir.

Bu gün Ərdoğan Türkiyəsi dünya üçün bir örnəkdir, müstəqillik, mərdlik, cəsarət örnəyidir və inkişaf örnəyidir. Bu gün imzalanmış bir neçə sənəd Türkiyənin inkişaf etmiş sənayesinin məhsullarını Azərbaycana təqdim edəcək. Bu gün imzalanmış sənədlər son illər imzalanmış sənədlər arasında çox kiçik bir yer tutur.

Vətən müharibəsində Türkiyənin müdafiə sənayesinin məhsulu olan məşhur “Bayraktar” böyük dəyişikliyə səbəb oldu və bizim uğurlarımızın əldə edilməsində müstəsna rol oynadı. Bütün dünya türk xalqının zəkasını, istedadını bir daha gördü, türk sənayesinin inkişaf etmiş sənaye olmasını bir daha gördü.

Bu gün tarixi gündür. Ona görə ki, bu Zəfər paradında türk və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanından keçdilər. Bizim təkcə Bakı şəhəri yox, bütün şəhərlərimiz indi Türkiyə və Azərbaycan bayraqları ilə bəzədilib. Əvvəllər də belə olub. Təbii ki, müharibə dövründə bu, daha da geniş vüsət almışdır. Bu, insanların ürəyindən gələn duyğulardır. Bu, əsrlərboyu qoruduğumuz sərvətdir. Bizim üstünlüyümüz ondadır ki, həm xalqlar, həm liderlər bir yerdədir, bir-birinə qardaş deyir. Eyni zamanda, biz bütün məsələlərdə bir yerdəyik. Ağır günlərdə də bir yerdə olmuşuq, gözəl günlərdə, sevincli günlərdə, bugünkü kimi gündə də biz birlikdəyik və bu, təbiidir.

Bu gün Türkiyə ilə Azərbaycan birliyi təkcə xalqlarımız üçün deyil, bölgə üçün, dünya üçün çox böyük önəm daşıyır. Çünki bizim siyasətimiz əməkdaşlığa, ölkələr arasındakı işbirliyinə hesablanıb. Bu tarixi Zəfərdən sonra başlanan yeni dövr üçün də biz tam hazırlıqlıyıq. Bu gün əziz Qardaşımla söhbət əsnasında, eyni zamanda, bundan sonrakı dövr haqqında da fikir mübadiləsi apardıq. Bizim fikirlərimiz üst-üstə düşür. Biz bölgədə yeni bir işbirliyi platformasını yaratmalıyıq. Artıq ilkin bəyanatlar verildi. Bu, çoxtərəfli platforma ola bilər. Bu işbirliyi platformasında iştirak edən bütün bölgə ölkələri bundan ancaq faydalana bilər.

Ənənəvi Türkiyə-Azərbaycan-Gürcüstan işbirliyi var. Eyni zamanda, Azərbaycan-Rusiya-İran işbirliyi var. Türkiyə-Rusiya-İran işbirliyi var. Yəni, bütün bu işbirliyi platformalarını biz ümumiləşdirib vahid platforma kimi təqdim edə bilərik. Əgər Ermənistan rəhbərliyi müharibədən düzgün nəticələr çıxararsa və öz əsassız iddialarından əl çəkərsə və gələcəyə baxarsa, o zaman onların da bu platformada yeri ola bilər. Biz buna açığıq və müharibədən sonra Azərbaycanın mövqeyi və verilən bəyanatlar bunu deməyə əsas verir. Biz bu səhifəni bağlamalıyıq, biz bu ədavətə son qoymalıyıq. Bunun təşəbbüskarı biz olmamışıq. Biz, sadəcə olaraq, 30 il ərzində beynəlxalq təşkilatlardan dəstək gözləyirdik, Minsk üçlüyündən dəstək gözləyirdik. Gözləyirdik ki, onların qəbul etdikləri BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilsin. Ancaq bu, olmadı. Sadəcə olaraq, nə hərb, nə sülh vəziyyəti davam edirdi, status-kvo davam edirdi. Biz bu status-kvonu hərb yolu ilə dəyişdirdik, düşməni torpaqlarımızdan çıxardıq, onlara çox böyük zərbə vurduq, onların ordusunu məhv etdik, onların əsas ideoloji sütunlarını məhv etdik. Amma ondan sonra nə etdik? Ondan sonra söylədik ki, biz işbirliyinə hazırıq. Biz yeni bir işbirliyi formatını təşkil etməklə gələcəkdə bölgəmizdə müharibə riskini sıfıra endirə bilərik.

Bu gün biz, eyni zamanda, gələcəyə baxarkən azad edilmiş torpaqların inkişafı ilə bağlı öz fikirlərimizi ortaya qoyuruq. Qarabağ dünyanın ən gözəl bölgələrindən biri olacaqdır. Əminəm ki, türk qardaşlarımızın yardımı ilə biz buna nail olacağıq. Biz bu gün artıq konkret layihələr haqqında danışdıq - yol layihələri, dəmir yolları layihələri, infrastruktur layihələri. Bütün bu layihələrdə Türkiyə və Azərbaycan şirkətləri bərabər iştirak edəcəklər. Bütün bu layihələrin qısa vaxt ərzində həyata keçirilməsi bölgəyə yeni nəfəs gətirəcəkdir.

Mən bir daha Azərbaycan xalqı adından, öz adımdan qardaş Türkiyə xalqına dərin təşəkkürümü bildirmək istəyirəm. Bu günlərdə biz Türkiyədən böyük dəstək gördük, həmrəylik gördük. Təkcə siyasətçilər yox, Cümhurbaşqanı başda olmaqla, bütün nazirlər, Türkiyə Böyük Millət Məclisi, eyni zamanda, ictimai fəallar, media mənsubları. Onlar öz həyatlarını risk altına ataraq gecə-gündüz döyüş bölgələrindən reportajlar hazırlayırdılar və məhz bu reportajlar vasitəsilə dünya gedən proseslərdən xəbər tuturdu. Türkiyədə bizim Qələbəmizə bizim qədər sevinən bacı-qardaşlarımıza öz salamlarımı çatdırıram və dərin təşəkkürümü bildirmək istəyirəm. Biz birlikdəyik, bu gün də belədir, sabah da belə olacaq və əbədi olacaq. Türkiyə-Azərbaycan birliyi sarsılmazdır, əbədidir!

Bir daha, əziz Qardaşım, xoş gəlmisiniz. Doğma vətəninizə xoş gəlmisiniz. Biz Sizi ürəkdən sevirik. Azərbaycan xalqı Sizə bu gün öz sevgisini küçələrdə göstəribdir. Biz danışdıq ki, Şuşa şəhərinə yeni avtomobil yolu, - Türkiyə şirkətlərinin inşa edəcəyi avtomobil yolu,- inşa ediləndən sonra, inşallah, Şuşa şəhərinə bərabər gedəcəyik.

Prezident Rəcəb Tayyib Ərdoğan: İnşallah.

x x x

Sonra Türkiyə dövlətinin başçısı bəyanatla çıxış etdi.

Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı

- Hörmətli Qardaşıma, cənab Prezidentə xüsusilə Zəfər Günündə verdiyi bu mesaja görə şəxsən öz adımdan və millətim adından çox təşəkkür edirəm. Mən bu Qələbənin başda bu işin liderliyini edən Qardaşıma, onun timsalında bütün azərbaycanlı türk qardaşlarıma mübarək olmasını şəxsim, nümayəndə heyətim və millətim adından diləyirəm və bir daha təbrik edirəm.

Həqiqətən 44 günlük bir müharibədən sonra ortaya çıxan nəticə Azərbaycandakı qardaşlarımı necə sevindirdisə, eyni dərəcədə Türkiyədəki qardaşlarını da sevindirmişdir. Bu, istər şəxsimizdə, istər bütün millətimizin şəxsində yaşanan bir sevincdir. İstər hökumətimiz olaraq, istərsə də parlamentin böyük bir qismi olaraq bu sevinci bərabər yaşadıq. Bu sevincə xüsusilə də yazılı, görüntülü medianın da böyük bir qismi eyni dərəcədə qatıldı və bu Zəfəri birlikdə daim qeyd etdilər, mesajlarını da bu istiqamətdə çatdırdılar.

Bu gün bu tədbirlərə Qardaşımın dəvəti ilə gəldik və prospektdəki o sevinci gördüyümüz zaman anladıq ki, belə bir Zəfərin nəticəsində coşqu ancaq bu cür, bu şəkildə ola bilərdi, bunu gördük. Təbii ki, belə bir Zəfərə görə təbrik etmək, “Mübarək olsun!” demək vəzifəmizdir. Rəbbim bundan sonrakı prosesi, inşallah, uğurla davam etdirməyi də nəsib etsin.

Təbii bu gün Qardaşımla Qarabağ münaqişəsinin həllinin nə üçün bu günə qədər uzadıldığını ətraflı müzakirə etdik. Nə üçün otuz il Qarabağda bu zülm çəkdirildi. Minsk qrupu deyilən bu üçlüyün işi nə idi? Onlar dünyanın ən güclü ölkələri idi - Amerika, Rusiya, Fransa. Nə üçün vaxt bu qədər uzadıldı, niyə nəticə hasil olmadı? Məgər bunu həll edə bilməzdilərmi? Edə bilərdilər. Onda niyə vaxtı uzatdılar? Ancaq sonra xeyli müsbət mesajlar gəlməyə başladı. Bunların başında da Fransa. Daim Qardaşıma zəng edirdi, ondan nəticələr əldə etməyə çalışırdı. Təbii, bəzən bizimlə də əlaqə qurmaq istədi, amma doğrusu, biz də cavab vermədik. Çünki bilirdik ki, dərdləri başqadır.

Xüsusilə qardaşlarımız artıq bunu özümüz həll edəcəyik dedilər, addımı atdılar. Addımı atdıqdan sonra iş getməyə başladı. İş getməyə başladıqdan sonra biz cənab Putin ilə müzakirələr apardıq. Eyni qaydа ilə bu işin diplomatik tərəfini xarici işlər naziri Mövlud bəy apardı. Xüsusilə bu məsələdə kəşfiyyat, müdafiə fəaliyyətləri aparıldı. Bütün bu fəaliyyətlərdən sonra vəziyyət xeyli fərqli şəkildə inkişaf etməyə başladı.

Xüsusilə mən burada cənab Putinin yanaşmalarını kənara qoya bilmərəm. Onun müsbət yanaşmaları da bu prosesi müsbət istiqamətdə aparmağa kömək etdi və iş bu səviyyəyə qədər gəlib çıxdı.

Burada Qardaşım bir az əvvəl ifadə etdiyi platforma məsələsinə toxundu, - sözün düzü, mən də buna böyük önəm verirəm,- lazım gələrsə altılı bir platforma da yarada bilərik dedi. Bunu cənab Putin də qəbul etdi. O

# "Dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr tapılmaz"

## *Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev arasında görüş keçirilib*

altılı platforma nədir: Rusiya, Türkiyə, Azərbaycan, İran, Gürcüstan və əgər qəbul edib əməl edərsə, Ermənistan da bu platformada yer ala bilər. Beləliklə, altılı platforma ilə regional sülhün formalaşdırılması nəzərdə tutulur. Təbii ki, bu regional sülhün bu bölgədəki ölkələrə gətirdiyi vəzifələr var. Bu vəzifələrə infrastruktur, siyasi, diplomatik bir çox məsələlər daxildir. Bu gün də Qardaşıma dedim, əgər bu məsələdə müsbət addımlar atıldığı təqdirdə biz də bağlı olan qapılarımızı açarıq. Amma yetər ki, bu müsbət addımlar atılsın. Bizim də qapılarımızı Ermənistanın üzünə bağlamaq kimi bir dərdimiz yoxdur. Çünki biz sülhün göyərçinləri olmaq istəyirik, sülh addımları atmaq istəyirik. Üstəlik, bizim Ermənistan xalqına bir kinimiz yoxdur. Problem Ermənistanın hakimiyyəti ilədir. Mənim ölkəmdə yüz mindən çox erməni var. Bunların arasında vətəndaşlıq hüququnu əldə edəni də var, əldə etməyəni də var. Amma biz onları da ölkəmizdə qonaq qəbul edirik. Niyə? Çünki bizim insanlara qarşı heç bir kinimiz yoxdur. Məqsəd xüsusilə bu sülhü formalaşdırmaq, möhkəmləndirməkdir. Addımlarımızı da buna görə atmalıyıq.

Təbii ki, burada liderlik çox vacibdir. Sən durub Qarabağı öz parlamentində qəbul etdirdiyin bir qərarla, bura artıq bir dövlətdir və biz buranı bu şəkildə tanıdıq demək haqqına sahib deyilsən. Bunu Paşinyan belə qəbul etmir. Amma Makron olaraq sən durub belə





bir məsələni gətirib parlamentindən keçirməyə çalışırsan. Deməli, hələ siyasəti öyrənə bilməmiş, dövlət idarəçiliyini də anlamamış, öyrənməmişdir, harada, nə, necə olur, bunu da bilmir. Sabah təbii ki, mənə hirslənəcək, bəlkə bu axşam hirslənəcək, bu, ayrı bir məsələdir. Amma necə olursa-olsun biz haqqı deməliyik. Bunu deməsək, vəzifəmizi yerinə yetirmiş olmarıq. Amma bunlara nail olacağıq.

Bugünkü mərasimlər, bugünkü həyəcan təbii ki, fərqli bir vəziyyət ortaya qoydu. İndi inanıram ki, artıq Azərbaycan bu yeni vəziyyətdən sonra bölgədə çox ciddi infrastruktur formalaşdırmaq istiqamətində addımlar atacaq. Bu addımlarla yanaşı, bildiyimə görə, inşallah, yollar tikiləcək, dəmir yolları inşa ediləcək, bununla bağlı qərarı cənab Prezident verib və Naxçıvandan Zəngilana, Zəngilandan şimala bütün bu yollar tikildikdən sonra vəziyyət dəyişəcək. Arzu edirik ki, inşallah, bu yolları başa çatdırdıqdan sonra yay mövsümündə yeni yollarla birlikdə Şuşaya gedək, inşallah, Şuşada birlikdə olaq. Şuşa bir tarixdir. Şuşanı o tarixi ilə yaşamaq, görmək həqiqətən bizim üçün də bir sevgidir. Bu sevgini də yaşamaq istəyirik. Şəhidlərimizin ruhlarını da şad edək. Bu qədər şəhidlərimiz var, qazilərimiz yaralıdır. Onlara Allahdan şəfalar diləyirik. Şəhidlərimiz bir amala inanaraq şəhid oldular. Bütün şəhidlərimizin ruhunu şad etmək lazımdır. Onların ruhlarının məkanlarından bu sədanı duymalıyıq. Duya biləcəyikmi? İnşallah, duyacağıq. Çünki onlar ölməyiblər, onlar yaşayırlar. Bu gün qazilərimizi gördükdə xüsusilə məmnun olduq. Onlar boş yerə qazi olmadılar. Bu qaziliyin altında yatan bir amal var. O nədir? Bu qazilik Qarabağı əsl sahiblərinə qaytarmaq üçün idi və bu qazilər bunu şəhidlərlə birlikdə bacardılar.

Təbii ki, biz bu gün Qardaşımla birlikdə xüsusilə infrastruktur və digər məsələlərlə bağlı müzakirələr apardıq. Ermənilər olduqları yerlərdə nə varsa hamısını yandırıblar, dağıdıblar. Məscidləri yandırıb dağıdıblar. Hətta onlar kilsələri də yandırıb dağıdıblar. Yəni, onları anlamaq, tanımaq mümkün deyil. Bütün bunlarla yanaşı, mən talan edilən, dağıdılan bu yerlərin yenidən bərpasını inanıram. Necə ki, 20 il əvvəl gələrkən necə bir Bakı vardı, bu gün necə bir Bakı var, tamamilə dəyişib. Bunu 20 il əvvəlkindən bu günə çatdıran Azərbaycan rəhbərliyi, inanıram ki, Allahın izni ilə Qarabağı da gecikmədən, 3-5 il ərzində tamamilə fərqli vəziyyətə gətirəcəkdir. Bu qüdrət, bu güc İlham qardaşımda var. Çünki bunu sübut edib.

Bu gün məzarları ziyarət edərkən parlamentimizin sabiq sədri İsmayıl Qəhrəman dedi ki, daha əvvəlki səfərlərində hər dəfə əvvəlkindən xeyli fərqli bir Azərbaycan, Bakı görüb. Xüsusilə mən bunu iyirmi il içərisində çox yaşadım. İnanıram ki, biz bu yay fəslində gəldikdə, inşallah, Qarabağın necə dəyişdiyini də görəcəyik. Buna şübhə etmirəm. Bu gün atılan imzalar, əslində, simvolik imzalardır. Atılacaq daha çox imzalar var. Bu imzalarla birlikdə inşallah, Azərbaycan Qarabağın tamamilə fərqli şəkildə yüksəlişinə davam edəcəkdir. Allah köməyimiz olsun. Şəhidlərimizə Allahdan rəhmət diləyirəm, qazilərimizə şəfalar arzu edirəm. Bir daha uğurlarınızın artaraq davam etməsini arzulayıram. Xeyirli olsun, təşəkkür edirəm.

# Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 10-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər. AZƏRTAC xəbər verir ki, dövlət başçıları Ulu Öndərin məzarı önünə əklillər qoyublar.

# Şəhidlərin xatirəsinə ehtiram










Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 10-da Şəhidlər xiyabanını ziyarət ediblər. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə əklillər qoydular.

Sonra Azərbaycan və Türkiyə prezidentləri Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklillər qoydular. Dövlət başçıları Xatirə kitabına ürək sözlərini yazdılar.



# Türkiyə ilə Azərbaycan arasında birbaşa səfər artıq şəxsiyyət vəsiqəsi ilə həyata keçiriləcək

Dekabrın 10-da Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azadetmə haqqında 2020-ci il 25 fevral tarixində Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında 1 saylı Protokol imzalandı. Protokol hər iki ölkənin xarici işlər nazirləri tərəfindən imzalandı. Məlum olduğu kimi, bu ilin 25 fevralında imzalanmış Sazişə əsasən iki ölkənin ümumvətəndaş pasportlarına malik vətəndaşları vizasız səfər edə və ölkə ərazisində 90 gün vizasız qala bilərdi. Sazişə əlavə olaraq imzalanmış Protokol qüvvəyə mindikdən sonra iki ölkə vətəndaşları artıq şəxsiyyət vəsiqəsi və digər sərhədkeçmə sənədləri ilə vizasız səfər edə və 90 gün vizasız qala biləcəklər.

Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, bu qayda yalnız Türkiyə ilə Azərbaycan arasında birbaşa səfər edən iki ölkə vətəndaşlarına münasibətdə tətbiq olunacaq. Türkiyə və Azərbaycan ərazisi vasitəsilə üçüncü ölkələrə səfər etmək istəyən vətəndaşlarımız pasportdan istifadə etməlidir.

Vurğulanıb ki, Azərbaycan Respublikası öz tarixində ilk dəfə şəxsiyyət vəsiqəsinin sərhədkeçmə sənədi kimi istifadə olunması üçün Müqavilə imzalayıb.

Tərəflər, habelə saxta sərhədkeçmə sənədlərindən istifadənin qarşısının alınması məqsədilə əməkdaşlıq etməyə qərar veriblər. Bu isə iki ölkənin sərhəd təhlükəsizliyinin gücləndirilməsi sahəsində yeni imkanlar yaradacaq.

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri başa çatıb




Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri dekabrın 10-da başa çatıb. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər yola saldılar.

# Türkiyə telekanalları Bakıda keçirilən Zəfər paradını canlı yayımlayıblar







Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı Türkiyə telekanalları tərəfindən canlı yayımla nümayiş etdirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birlikdə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını, eləcə də Qafqaz İslam Ordusu şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət etmələri də qardaş ölkənin telekanalları tərəfindən göstərilib. Reportajlarda dövlət başçılarının paradda söylədikləri nitqlərindən ayrı-ayrı məqamlar təqdim olunub.




# Azərbaycanın və Türkiyənin birinci xanımlarının görüşü olub



Dekabrın 10-da Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan ilə görüşü olub.

## İqor Korotçenko: Azərbaycan onun maraqlarına yenidən qəsd etmək cəhdlərinin qarşısını birdəfəlik almalıdır



Hərbi ekspert, "Natsionalnaya Oborona" (Milli Müdafiə) jurnalının baş redaktoru İqor Korotçenko Bakıda ənənəvi keçirilən ADEX Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə bağlı müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

***- Rusiyanın "Natsionalnaya Oborona" jurnalı ADEX sərgisini dəstəkləyən ilk xarici tərəfdaşlardan biridir. Siz bu sərgilərdə olmusunuz. Təəssüratlarınızı bölüşə bilərsinizmi?***

- ADEX sərgisi beynəlxalq ekspert və jurnalistlərdə, eləcə də bu silah sərgisində iştirak etmiş Rusiya müdafiə sənayesinin nümayəndələrində xoş təəssürat yaradıb. Öncə qeyd etmək lazımdır ki, həmin sərgi bu qəbildən olan tədbirlər üzrə yüksək meyarlara tam cavab verir. Sərgi yüksək səviyyəli hazırlıq, yaxşı maddi-texniki təchizat, məkan və ən əsası, həm Azərbaycan hərbi sənaye kompleksinin, həm də dünyanın aparıcı hərbi sənaye şirkətlərinin malik olduğu imkanların genişmiqyaslı təqdimatıdır. Yəni deyə bilərik ki, Bakıda keçirilən ADEX sərgisi təqdim olunan ekspozisiyaların miqyası və təşkilatçılıq səviyyəsi baxımından bu gün dünya səviyyəli tədbirlərdən biridir. Əminəm ki, bu sərginin nüfuzu getdikcə artacaq və ADEX sərgisi müasir silahların aparıcı alıcıları və istehsalçılarının görüşərək danışıqlar aparacağı, müqavilələr imzalayacağı platformalardan birinə çevriləcək.

***- Müasir ordu quruculuğu və ordunun modernləşdirilməsi prosesində müdafiə sərgiləri nə kimi rol oynayır?***

- Ümumilikdə, müdafiə sərgiləri müasir ordu və donanmanın yaradılmasında və modernləşdirilməsində çox vacib rol oynayır. Bu, ilk növbədə, onunla bağlıdır ki, belə tədbirlər silah alıcıları və istehsalçıları arasında birbaşa dialoqa imkan yaradır. Sərgilərə gələn nümayəndə heyətlərinin əsas hədəfləri odur ki, müəyyən silah seqmentində ən yaxşı məhsulu görmək, müasir silahların texniki xüsusiyyət və imkanları barədə suallar vermək və əlbəttə ki, həm ilkin, həm də artıq müqavilələrin imzalanması ilə nəticələnən danışıqlar aparmaqdır. Sözsüz ki, bütün dünyada silah sərgiləri həm də bu cür tədbirlərə ev sahibliyi edən ölkənin nüfuzunu göstərir. Bu baxımdan, Azərbaycanın yüksək beynəlxalq nüfuzu bu gün müasir dünyada keçirilən aparıcı silah sərgilərindən biri olan ADEX sərgisinin nüfuzu ilə daha da möhkəmlənir.

***- Qlobal müdafiə sənayesinin inkişafını necə görürsünüz və yaxın gələcəkdə keçiriləcək sərgilərdə, xüsusən də ADEX -2022 sərgisində hansı ekspozisiyaları görə bilərik?***

- Əlbəttə, bu gün qlobal müdafiə sənayesinin inkişafı koronavirus pandemiyası səbəbindən ciddi şəkildə ləngiyir. Lakin mən tam əminəm ki, yaxın altı ay və ya maksimum bir il ərzində koronavirus problemləri dünyanın bütün ölkələrində əhalinin kütləvi şəkildə peyvəndlənməsi sayəsində həll olunacaq. Hər yerdə hərəkət və təmas məhdudiyyətləri aradan qaldırıldıqdan sonra silah sərgiləri də yenidən öz işinə başlaya biləcək, müasir silah salonu olan sərgi (əsas ölkə bazarlarında istehsalçıların marketinq və təşviqat elementi olaraq) yenidən tam fəaliyyət göstərəcək. Bu baxımdan güman edirik ki, 2022-ci ildə Bakıda keçirilməsi gözlənilən növbəti ADEX sərgisi həm Azərbaycanı, həm də bölgənin digər ölkələrini müasir silah sistemləri və hərbi texnikanın alıcısı kimi nəzərdən keçirən hər kəs üçün müasir silah bazarında güclü sıçrayış olacaq. Rusiya ADEX-2022 sərgisində böyük ekspozisiya ilə iştirak edəcək və bu ekspozisiyada Rusiyanın bütün seqmentlər üzrə ən iri silah istehsalçıları və ixracatçıları təmsil olunacaq.

Zənnimcə, bu gün İkinci Qarabağ müharibəsində qələbədən sonra öz ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycan etibarlı hava və kosmik müdafiə sistemi yaratmaq üçün, ilk növbədə, müasir qırıcılar, eləcə də müasir hava hücumundan müdafiə sistemləri əldə etməli və hadisələrin gedişatının geri sayımının, eləcə də Azərbaycanın maraqlarına yenidən qəsd etmək cəhdlərinin qarşısını birdəfəlik almalıdır. Bu baxımdan, artıq Azərbaycana dəyəri 5 milyard dollardan çox olan silah tədarük etmiş Rusiya Federasiyası yeni müqavilələr imzalamağa, yeni danışıqlar aparmağa və yenidən müasir silah sistemlərini təchiz etməyə, bir sözlə, Azərbaycanın təhlükəsizliyini, suverenliyini və Silahlı Qüvvələrini daha da gücləndirmək üçün lazım olan dəstəyi göstərməyə hazırdır.



# Heydər Əliyev işığının nurlandırdığı yol

*Bu, Prezident, Ali Baş Komandan İlham Əliyevin mətnlə addımladığı sarsılmaz yoldur*

***Hər bir millət, hər bir dövlət yaşam tarixində torpağını, xalqını sevən, onu mübarizə meydanında qələbəyə, çətin anlarda işığa doğru aparan rəhbərə, şəxsiyyətə ehtiyac duyur. Sözün əsl mənasında hər bir dövlətin bir dövlət olaraq formalaşmasında, millətin millətlər sırasında mətin dayanmasında böyük şəxsiyyətlərə daim ehtiyac var. Azərbaycanın adı bu gün dünya müstəvisində öndə gedən dövlətlər sırasında məğrur durur. Daim bu torpaq, bu millət dahilər, onun adını zirvələrə ucaldan şəxsiyyətlər yetirib.***

“Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz”. Bu fikir Azərbaycan adını öndə gedən dünya ölkələri sırasına yazan, öz uzaqgörənliyi ilə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, millətin hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevə məxsusdur! Əslində doğru deyiblər ki, zaman hər şeyi yerbəyer edir, hər şeyin, hər kəsin doğru qiymətini verir. İllər keçdikcə, Ümummilli Liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını, vətənini necə bir məhəbbətlə sevdiyini daha çox anlayırıq. Bu siyasət nəhənginin fəaliyyəti bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur. Belə ki, tarixin xalqımıza bəxş etdiyi dahi şəxsiyyətin, müasir Azərbaycanın xilaskarı və memarı, Ulu Öndəri Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun Azərbaycana otuz ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr etmişdir.

Artıq kimsəyə sirr deyil Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yürütdüyü imperializm siyasi xəttinə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir. Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

## Ulu Öndərin səsi Kremlin ölkəmizin ətrafında yaratdığı informasiya blokadasını yardı

1990-cı ilin 20 yanvarında isə xalqımıza qarşı əsrin ən böyük cinayətlərindən biri törədildi. Dağlıq Qarabağa qarşı təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal edildi, 20 mindən çox insan şəhid, 30 mindən artıq adam isə əlil, şikəst oldu. Belə ağır bir zamanda Heydər Əliyev öz həyatını təhlükə altına alaraq xalqı ilə birgə olduğunu bəyan etdi. Məhz Ulu Öndərin səsi Kremlin ölkəmizin ətrafında yaratdığı informasiya blokadasını yardı. Öncə Naxçıvanı çətin durumdan xilas edən Ulu Öndər, 1993-cü ildə xalqın təkidi və tələbi ilə Bakıya qayıtdı. Beləliklə, Azərbaycanın dövlətçiliyi, milliətimiz və vətənimiz xilas oldu. Azərbaycan yenidən dinamik inkişaf tempi əldə etdi. Ən əsası isə SSRİ dövründə başlanan və məhz müstəqilliyimizə hesablanmış layihələr davam etdirildi, müstəqil dövlətimiz yaşadı. Artıq qarşıdakı məqsəd dövlətin qurulması, dövlətçilik ənənəsinin yaradılması, dövlət idarəçiliyi institutlarının formalaşdırılması və müstəqil ölkəmizin qanunvericilik bazasının təşkili idi. Bütün bunlarla yanaşı, müstəqil Azərbaycan dövlətinin xarici siyasət kursu formalaşdırıldı. Ulu Öndər bu vəzifələrin öhdəsindən ləyaqətlə gəldi. Azərbaycanda müstəqilliyin əbədiliyini, dönməzliyini təmin edən dövlət quruluşu yaratdı.

Bəli, həmin dövrlərdə ölkədə böyük bir qarşıdurma yaranmışdı. Heydər Əliyev zəkası ölkəmizi bu problemdən də xilas etdi. Məhz Ulu Öndərin səyi nəticəsində Azərbaycanda hüquqi dövlət quruldu. Bu günkü demokratik prinsiplərə sadiq, vətəndaş cəmiyyəti, inkişaf etmiş və sabit Azərbaycanın təməli məhz 1993-cü ilin yayında atıldı.

O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

## Dahi Lider Heydər Əliyev müstəqil dövlətimizin ilk Konstitusiyasının yaradıcısı

Ulu Öndər Heydər Əliyev ictimai-siyasi sabitliyi qorumaq üçün qanunçuluğun yüksək səviyyədə təsbit olunması istiqamətində mühüm addımlar atdı. Ölkədə xaos və özbaşınalığın qarşısı alındı. Xalqın Heydər Əliyevə inamı, etimadı o dərəcədə yüksək idi ki, onun hər bir çağırışı Azərbaycan xalqının bütün təbəqələrində böyük əks-səda doğururdu. 1994-95-ci illərdə xarici qüvvələrin köməyi ilə bəzi dairələr Azərbaycanda dövlət çevrilişinə cəhd göstərdilər. Məqsəd ölkəmizin həyata keçirdiyi müstəqil siyasəti əngəlləmək, Azərbaycanı yenidən xarici qüvvələrin, imperiya dairələrinin təsiri altına keçirmək idi. Azərbaycan xalqının Heydər Əliyevə olan inamı hesabına dövlət çevrilişinə cəhdin qarşısı qətiyyətlə alındı. İctimai-siyasi sabitliyin təmin edilməsi iqtisadi islahatların həyata keçirilməsinə yol açdı. Dövlət idarəçiliyi ilə bağlı qanunlar hazırlanaraq təsdiq olundu. Ən başlıcası isə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edildi. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edildi. Bu Konstitusiyanın müəllifi Ulu Öndər Heydər Əliyevdir. Azərbaycan xalqının siyasi taleyini, siyasi fəaliyyətini, məqsəd və məramını, iqtisadi və dövlət idarə üsulunu müəyyən edən Konstitusiyanın qəbul edilməsi olduqca əhəmiyyətli hadisədir. Bu Konstitusiya ilə Azərbaycanda hakimiyyət bölgüsü - qanunverici, icra və məhkəmə hakimiyyəti arasında bölgü müəyyənləşdirildi. Konstitusiya ilə təsbit edildi ki, Azərbaycan demokratik, hüquqi və unitar dövlətdir. Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer verilməsi göstərdi ki, Azərbaycanın yolu demokratiyadır. Bütün bunlar Ulu Öndərin dövlət quruculuğu sahəsində gördüyü böyük işlərin əsas istiqamətlərindən biridir.

## “Əsrin müqaviləsi” - Heydər Əliyevin tarixi sərvətlərinə sahib çıxmasının təsdiqi

Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması, dünyanın əsas neft-qaz ixracatçısına çevrilməsidir. Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi nəhəng siyasi layihələrdən biri neft strategiyasıdır. Neft strategiyası bu gün də Azərbaycan üçün həm siyasi, həm də iqtisadi dividendlər gətirməkdədir. Ulu Öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də Bakıda müxtəlif ölkələrin neft şirkətləri ilə imzalanan “Əsrin müqaviləsi” Azərbaycanın yeni neft strategiyasının əsasını qoydu. Bu neft strategiyası dünyanın ən qabaqcıl neft şirkətlərini Azərbaycana investisiya yatırmağa cəlb etdi. Bu investisiyalar iqtisadi sabitliyin bərqərar olması üçün böyük rol oynadı. Azərbaycanın beynəlxalq nüfuzu artdı, bölgədə rolu genişləndi. O cümlədən iqtisadi islahatlar aparılması üçün böyük baza yaradıldı, sosial islahatlar üçün iqtisadi potensial əldə edildi.

Heydər Əliyevin həyata keçirdiyi nəhəng geopolitik layihələr sırasında Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi bu gün həm Azərbaycan, həm də region üçün böyük rol oynayır. Bütün iqtisadi təhlilçilərin və tədqiqatçıların fikri ondan ibarətdir ki, belə nəhəng layihənin həssas bir bölgədə, geopolitik baxımdan dartışmalar mərkəzi olan Cənubi Qafqazda həyata keçirilməsi yalnız böyük şəxsiyyətin - Heydər Əliyevin uzaqgörənliyi ilə reallaşa bilərdi.

Enerji təhlükəsizliyi bütün dünya dövlətlərini düşündürən ən vacib məsələlərdən biridir. Ona görə də Azərbaycanın, o cümlədən Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasına əngəl olmaq istəyən qüvvələr var idi. Onların maneələrinə baxmayaraq Heydər Əliyev BTC neft kəmərinin, sonra isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin reallaşması üçün böyük siyasət həyata keçirdi. Bu layihələrin reallaşması Heydər Əliyevin uğuru, onun böyük şəxsiyyət olaraq tarixi prosesə göstərdiyi təsirlərin nəticəsi idi.

## Heydər Əliyevin Dağlıq Qarabağ probleminin həlli üçün atdığı addımlar

Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin I hissəsində göstərilir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Həmin maddənin II hissəsində isə göstərilir ki, Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir. Qeyd edilən maddənin III hissəsinə əsasən Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

Ulu Öndər Heydər Əliyev istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərində Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırmış və buna da nail olmuşdur.

Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi nəticəsində BMT Baş Məclisinin 6 sentyabr 2006-cı il tarixli “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı qətnaməsində Azərbaycanın işğal edilmiş ərazilərində baş verən yanğınlardan və onun vurduğu böyük ekoloji ziyandan ciddi narhatlığı vurğulanmışdır. Ölkə başçısı İlham Əliyev çıxışlarında dəfələrlə bəyan etmişdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycan ərazilərinin bütövlüyü çərçivəsində həll edilə bilər. Prezident Milli Məclisin 2006-cı il payız sessiyasının açılışındakı çıxışında demişdir: “Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və yəqin ki, gələn il biz buna nail olacağıq. Bütün beynəlxalq normalara məhəl qoymayan Ermənistan, əfsuslar olsun ki, beynəlxalq təşkilatlar tərəfindən qınaq obyektinə çevrilmir. Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır... Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik”.

Ardı Səh. 13

# Heydər Əliyev işığının nurlandırdığı yol

*Bu, Prezident, Ali Baş Komandan İlham Əliyevin mətnlə addımladığı sarsılmaz yoldur*

Əvvəli Səh. 12

Bəli, bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyünün bərpasına nail oldu. Böyük Öndər Heydər Əliyev demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".

Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş, Heydər Əliyev idarəçilik məktəbinin layiqli davamçısı hesab edilən İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!"

Bəli, Ruhun şad olsun Ulu Öndər, Qarabağ Azərbayücandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəstndə "Dağlıq Qarabağ" problemi yoxdur!. Prezident İlham Əliyev bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

Ona görə də Ulu Öndərin fiziki yoxluğu dövründə ölkəsini, millətini düşünüb, müstəqilliyimizin əbədi olması uğrunda qətiyyətlə mübarizə apara biləcək yeganə Lider Prezident İlham Əliyev cənablarıdır. Bütün bunlar isə Heydər Əliyev uzaqgörənliyinin, Heydər Əliyev zəkasının və Heydər Əliyev nurunun bizə tərəf saçılan əbədi şölələridir!

***RƏFİQƏ HÜSEYNOVA***

# YAP Ağsu rayon təşkilatı Ümummilli Lider Heydər Əliyevin vidiofarmatda anım mərasimi keçirib

***YAP Ağsu rayon təşkilatında Ümummilli Liderimiz Heydər Əliyevin anım günü ilə əlaqədar "Ümummilli Lider Heydər Əliyevin siyasi irsi, müasirlik və gələcək inkişaf perspektivləri" mövzusunda videoformatda elmi-praktiki konfrans keçirib. İlk öncə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edib.***



Tədbirdə çıxış edən YAP Ağsu rayon təşkilatının sədri Əli Hüseynov bildirib ki, müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin adı zəmanəmizin ən böyük siyasət və dövlət xadimlərinin, qüdrətli şəxsiyyətlərinin sırasında yer almışdır: "Ulu Öndər Heydər Əliyev bənzərsiz həyatı və zəngin fəaliyyəti ilə xalqımızın Ümummilli Lideri səviyyəsinə yüksəlmiş və xalqımız üçün ucalıq rəmzinə, əməlləri isə hünər timsalına çevrilmişdir. Heydər Əliyev öz böyük xidmətləri ilə tarixin yaddaşında əbədiləşmiş ən böyük azərbaycanlıdır".

Ə.Hüseynov qeyd edib ki, xalqımızın böyük oğlu, Ulu Öndər Heydər Əliyevin vəfatından 17 il keçir: "Qədirbilən xalqımız hər il Ulu Öndərə vəfa borcunu layiqincə yerinə yetirir. Heydər Əliyev Azərbaycanı çətinlik girdabından xilas etmiş, müstəqil dövlətimizi qurmuş, gücləndirmiş, inkişaf perspektivlərini müəyyən etmiş və beynəlxalq miqyasda layiqincə tanıtmışdır. Heydər Əliyevin ən böyük xidmətlərindən biri Azərbaycanı öz layiqli siyasi varisi cənab İlham Əliyevə həvalə etməsidir. Ulu Öndər özünün başladığı nəhəng işlərin uğurlu icrasını kimin təmin edə biləcəyini də müəyyənləşdirdi. Fiziki imkanlarının tükəndiyi bir vaxtda həmişə inandığı və etibar etdiyi xalqına müraciət ünvanladı: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

"Bugünkü tarix sübut etdi ki, dahi şəxsiyyətin uzaqgörənliyini Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev son 17 illik prezidentlik fəaliyyəti ilə təsdiqlədi", - deyən Ə.Hüseynov bildirib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın sözdə yox, əməldə real və məğlubedilməz ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başladı. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. Noyabrın 8-də Azərbaycan xalqı heç zaman yaşamadığı sevinci və fəxarət hissini yaşadı, 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa işğaldan azad edildi. Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDASI qoyuldu. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

YAP Ağsu rayon təşkilatının sədri onu da bildirib ki, bu gün fəxr və qürur duyuruq ki, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Liderimiz, Qalibimiz Prezident, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə bu gün Qələbə Paradımız keçirilir. Bu, böyük qürur və fəxredicidir".

YAP Ağsu rayon təşkilatının Qadınlar Şurasının sədr müavini Sevil Mirzəliyeva Ulu Öndərimizin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən, onun millətinə olan dərin sevgisindən, rayon təşkilatının Gənclər Birliyinin sədri Elnur Fərzəlizadə və başqaları Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası, müasir, müstəqil Azərbaycan Respublikasının quruculuğu yolundakı şərəfli mübarizəsi barədə fikirlər söyləyiblər.

***R.HÜSEYNOVA***

# "Zəfər paradı Ordumuzun qüdrətini, Ermənistanın rəzilliyini bütün dünyaya nümayiş etdirdi"

"Bakıda, "Azadlıq" meydanında keçirilən Zəfər paradı Ordumuzun qüdrətini, Azərbaycan-Türkiyə qardaşlığını, Ermənistanın rəzilliyini bütün dünyaya nümayiş etdirdi. Xüsusilə də, nəzərə alsaq ki, Bakıda keçirilən möhtəşəm Zəfər paradı Yerevanda 44 günlük müharibədə məhv edilmiş erməni hərbçilərinin ailələrinin etiraz aksiyaları fonunda keçirilirdi, bu faktor da Ermənistanın bundan sonrakı məğlub, rəzil damğasına ilə yaşayacağına siyasi işarə oldu. Bu səbəbdən də Zəfər paradı nə qədər azərbaycanlılar üçün qürur, şərəf, ləyaqət simvoludursa, bir o qədər də ermənilər üçün məblubiyyət, rəzillik amili olaraq yaddaşlarda qalacaq". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.



"Azərbaycan Ordusu xalqımızın qüruru, dövlətimizin güvənc mənbəyidir" - deyən Sədaqət Vəliyeva Ordumuzun dünyanın ən güclü orduları sırasında olduğunu diqqətə çatdırıb. Əlavə edib ki, ordu quruculuğu istiqamətində həyata keçirilən sistemli və məqsədyönlü tədbirlərin nəticəsi kimi Azərbaycan güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir: "Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək, hətta işğal altında olan torpaqlarımızı hər an azad etmək qüdrətinə malik olduğunu sübut etdi".

Sədaqət Vəliyeva bildirib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarix yazan rəşadətli ordumuz düşməni diz çökdürdü, şanlı tarix yazdı: "Dekabrın 10-da keçirilən Zəfər paradı qələbə sevincimizin tərkib hissəsinə çevrildi. Müzəffər ordumuz "Azadlıq" meydanında qürurla addımladı. Azərbaycan əsgəri böyük ruh yüksəkliyi ilə bu paradda keçid etdi. Zəfər paradı tariximizə qızıl hərflərlə yazıldı. Qələbə paradında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, hərbi gəmi və katerlərin nümayişi ilə yanaşı, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin də nümayişi böyük qürurverici hadisə oldu. İşğalçı Ermənistan və ona havadarlıq edən dövlətlər Azərbaycan Ordusunun gücünün, qüdrətinin şahidi oldu."

# Tahir Rzayev: Vətən yolunda şəhidlik zirvəsinə ucalanlar və əlil olan şəxslər hər birimiz üçün əziz və qiymətlidir



"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanına əsasən şəhid ailələrinə və qazilərə dəstək məqsədi ilə yaradılan "YAŞAT" Fondu dövlətimizin başçısının humanist prinsiplərə sadiqliyinin, torpaqlarımızın azadlığı uğrunda şəhid olan və fiziki sağlamlığını itirən insanlara qayğı və diqqətin təzahürüdür". Bu fikirləri yap.org.az saytına Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib.

Tahir Rzayev bildirib ki, Vətən yolunda şəhidlik zirvəsinə ucalanlar və əlil olan şəxslər dövlət rəhbəri və vətəndaşlarımız üçün əziz və qiymətlidir. Dövlət bu insanlara daimi qayğı göstərir və onların adlarının əbədiləşdirilməsi, sağlamlıqlarının qorunması, həyatlarının yaxşılaşması üçün lazımi tədbirlər görülməkdədir.

Komitə sədrinin sözlərinə görə, bu günə kimi 9 minə yaxın şəhid ailəsinə və qazilərə evlər verilib, bu kateqoriyadan olan 7 mindən çox insan minik maşınları ilə təmin olunub: "Bu insanlara ildə bir dəfə sanatoriya - kurort müalicəsi üçün göndərişlər verilir, maddi yardımlar edilir və digər tədbirlərdə həyata keçirilir. Ancaq göründüyü kimi igid oğlan və qızlarımızın şücaətləri qarşısında bu azdır və cənab Prezidentin Fərmanı ilə yaradılan "YAŞAT" Fondu şəhid ailələrinin və qazilərin sosial vəziyyətinin daha da yaxşılaşdırılması məqsədi daşıyır və bu insanların məişətinə, sağlamlığına xidmət edəcək. Hər bir Azərbaycan vətəndaşı fondun yaradılmasını alqışlayır və bunu ölkəmizin başçısının insan amilinə böyük dəyər verməsi kimi qiymətləndirir. Fondun fəaliyyətinin genişləndirilməsinə dəstək olmağı hər bir insan öznün şərəfli borcu hesab edir və sözsüz ki, bu qayğı şəhid və qazilərimizə olan sonsuz məhəbbətdən qaynaqlanır".

# Ucuz erməni təfəkkürü: növbəti müharibə ritorikası Ermənistanı məhv edə bilər

Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik daimi komissiyasının üzvü, "Mənim addımım" hakimiyyətyönlü fraksiyasının deputatı Andranik Koçaryanın Türkiyə və Azərbaycanla dialoqa gedərək, münasibətlər qurulmasının vacibliyindən danışması ölkə daxilindəki əks siyasi qüvvələrin ajiotajlarına və qəti etirazlarına səbəb olub. SİA xəbər verir ki, müxalifyönlü deputatlar və siyasilər sözügedən təklifi rədd etməklə yanaşı, açıq-aşkar müharibənin davam etməsi istədikləri gizlətmirlər, bu da azmış kimi Türkiyəyə qarşı ərazi iddialarını önə sürürlər. Halbuki, Andranik Koçaryan dialoqa getməyi və münasibətlərin qurulmasının Ermənistanın dövlətçilik əsaslarının xilası olaraq gördüyünü bəyan edib.

## Naira Ayrumyan nəinki Azərbaycana, hətta Türkiyəyə qarşı ərazi iddiallarının davamlı olaraq irəli sürülməyinin tərəfdarıdır

Ayrumyan:
**"Bu razılaşma ilə Ermənistan Qarsa, Ərdahana, Ağrıya olan "hüququndan" imtina edəcək"**

Bu arada, Andranik Koçaryanın təklifinə qarşı çıxanlardan biri də Ermənistanın siyasi şərhçisi Naira Ayrumyandır. O, Iragir.amda yazdığı fikirləri ilə qeyd edib ki, Türkiyə və Rusiyanın egidası altında imzalanan üçtərəfli atəşkəs bəyannaməsinin nəticələrinə görə, Ermənistan nəinki Azərbaycanın və Türkiyənin sərhədlərini tanımalı olacaq, həm də Qarabağa və Naxçıvana (???!!!) olan "hüququnu" birdəfəlik itirəcək.



Əslində, belə bir ucuz təfəkkür və siyasi həyasızlıq nümayişləri ilə ölkələrini birdəfəlik məhvə doğru sürüklədiklərini anlamayan bu tip erməni başbilənlərinin bəyanat və şərhləri həqiqətən də onların mehriban qonşuluq, sülh, əminamanlıq prinsipini dərk etmədiklərini sübuta yetirir. Məhz bu baxımdan, Naira Ayrumyan ucuz təfəkküründə hətta Türkiyəyə qarşı ərazi iddialarını xatırladıb. "Bu razılaşma ilə Ermənistan Qarsa, Ərdahana, Ağrıya olan "hüququndan" imtina edəcək. Ermənistan dünya tərəfindən tanınan hüquq və gücünü itirməli olacaq", deyə o bildirib.

**"Sonuncu dəfə bu 2008-ci ildə olmuşdu, onda Rusiya ilə Türkiyə "futbol diplomatiyasını" ortaya atdılar"**

Erməni siyasi şərhçisi davam edir: "İrəvan indiyə qədər erməni-türk sərhədlərini tanımayıb. Türkiyə rəhbərliyi erməni hakimiyyətlərini sərhədi tanıması üçün dəfələrlə yola gətirməyə çalışıb, sonuncu dəfə bu 2008-ci ildə olmuşdu, onda Rusiya ilə Türkiyə "futbol diplomatiyasını" ortaya atdılar və az qala Ermənistanı güc hüququndan məhrum etmişdilər".

Ayrumyan əlavə edib ki, onda bu məsələni sülh yolu ilə həll etmək olmadı, üstündən 12 il keçdi və qərar verildi ki, Ermənistanın hüququnu müharibə yolu ilə əlindən alsınlar. "Andranik Koçaryanı qorxutmağa faktiki olaraq nail oldular və o Azərbaycana təzim etməyə, yeni sərhədi tanımağa razıdır", deyə erməni siyasi şərhçisi yazır.

Erməni siyasi şərhçisi ABŞ dövlət katibinin müavini Filip Rikerin fikirlərini də xatırladıb və həmin fikirlərdən "işıq ucu" axtarmağa cəh göstərib. Belə ki, amerikalı rəsmi deyib: "Ermənistan 30 il əvvəl müharibə meydanında qələbə qazanmışdı, ancaq münaqişəni tənzimləməyi bacarmadı, Azərbaycanın da bu dəfə bunu edəcəyinə inanmıram".

Buradan belə nəticə çıxarmaq olar ki, ABŞ da Fransa kimi Minsk qrupunun həmsədr ölkəsi olaraq münaqişənin sülh yolu ilə hlli istiqamətində heç bir ciddi uğura nail ola bilmədi. Görünür, cənab Riker münaqişənin 44 gün ərzində Azərbaycanın xeyrinə həll olunmasından narahat olub.

"Bakı hər hansı öhdəlik daşıyacağı heç bir sənədə 30 il boyunca imza atmadı"

Məhz bu fikirləri xatırladan Ayrumyan amerikalı rəsmisinin fikirlərinin sadəcə bəyanat olmadığını, Ermənistana xəbərdarlıq olduğunu bildirib. "Bu, Ermənistana xəbərdarlıqdır ki, yeni müharibə qarşısındakı qorxusu ona daha sonra düzəlldilə bilməyəcək səhvi etməsin. Üçtərəfli razılaşma sadəcə üç insan tərəfindən imzalanan sənəddir və heç bir hüquqi təsirə malik deyil. Bax, buna görə Türkiyə və Rusiya legitim razılaşmanı bağlabaşa tələsirlər, onu isə uyalnız Ermənistan imzalaya bilər", deyə Ayrumyan açıq-aşkar müharibə istədiyini sərgiləyib.

O, həmçinin bildirib ki, Putin Nikol Paşinyanı hakimiyyətdə saxlamağa çalışır, çünki işləri sona çatırmaq lazımdır: "Ermənistan Birinci Qarabağ müharibəsindən qalib ayrıldıqdan sonra Bakı hər hansı öhdəlik daşıyacağı heç bir sənədə 30 il boyunca imza atmadı. İmzanın gücü Smerç və Bayraktardan daha güclükdür. Bunu Ankarada da, Moskvada da anlayırlar, amma İrəvanda anlamırlar", deyə Ayrumyan məhvin astanasında olan ölkəsinin hələ də "çıxış yolunun" olduğunu və bunun yeni müharibə ilə olacağını dar, ucuz təfəkkürü ilə ifadə edib.

**Rövşən RƏSULOV**

# Niderland cəmiyyətində ultra-sağ, radikal-şovinist, antitürk və islamofov meyillər tüğyan edir

İşğal olunmuş torpaqların azad olunması uğrunda başlayan Vətən müharibəsi Azərbaycanın böyük zəfəri ilə başa çatdı. Müzəffər Azərbaycan Ordusu qətiyyətli Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə təcavüzkar Ermənistanın silahlı qüvvələrini 44 gün ərzində darmadağın edərək işğal altındakı torpaqlarımızı düşmən tapdağından azad etdi. Azərbaycan 30 illik ədalətsiz siyasi-hərbi və diplomatik mübarizədən zəfərlə çıxdı. Tarixi ədalət bərpa olundu.

44 günlük Vətən müharibəsinin başa çatmasını rəsmiləşdirən və işğalçı ölkənin faktiki kapitulyasiyası kimi qiymətləndirilən noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli Bəyanat Avropanın bəzi az sayda ölkələrində olduğu kimi, erməni diasporu və lobbisinin təsiri altında olan Niderland Parlamentində də anti-Azərbaycan, anti-Türkiyə, islamofob qüvvələrin hədəfinə çevrilib. Ermənistanın məğlubiyyətinin rəsmiləşdiyi vaxtdan təxminən 20 gün sonra bu ölkə parlamentinin Nümayəndələr Palatasında Azərbaycan və Türkiyə əleyhinə bir sıra qətnamə təşəbbüsləri irəli sürülmüşdür. Qardaş Türkiyə və Azərbaycana qarşı sanksiyaların tətbiq olunması, qondarma rejimin tanınması, uydurma "suriyalı terrorçular" məsələsinin araşdırılması və s. cəfəng çağırışlar edən bu layihələrin müəllifləri Martin van Helvert (Xristian Demokratik Çağırış Partiyası), Joel Voordevind (Xristian İttifaqı Partiyası), Sven Koopmans (Azadlıq Naminə Xalq Partiyası) və digər ultrasağçı, anti-Türkiyə və faşist ideologiyasının təbliğatçıları və erməni lobbisinin maliyyələşdirdiyi qüvvələrin əlaltılarıdırlar.

Onların səyləri nəticəsində noyabrın 17-də Azərbaycan və Türkiyə əleyhinə Niderland parlamenti tərəfindən bir neçə tövsiyə xarakterli qətnaməni qəbul olunması da Qərbin ikili standartlarının növbəti açıq təzahürü kimi dəyərləndirilə bilər. Reallıqla heç cür barışmaq istəməyən bu qüvvələr parlamentdə mütəmadi olaraq mövzunu qaldırır, hökumətə müxtəlif təxribat xarakterli suallar ünvanlayırlar. Ədalət naminə demək lazımdır ki, Niderland hökuməti parlamentdəki təxribatçı təşəbbüsləri müəyyən mənada neytrallaşdırmağa və sənəd layihələrini balanslaşdırmağa çalışır. Amma aydındır ki, hökumətin reallığı əks etdirən və beynəlxalq hüquqa söykənən birmənalı mövqe nümayiş etdirməməsi parlamentdə radikal qüvvələrin əl-qolunu daha da açır. Təəssüf ki, bu, həlelik belədir.



Həqiqətən də bu ölkənin siyasi tarixində təəssüf doğuracaq belə qara səhifələr az deyildir. Belə ki, ötən əsrin 70-ci illərinə qədər müstəmləkəçi ölkə olan Niderland Amerika, Asiya və Afrika qitələrində onlarla xalqı siyasi və iqtisadi əsarətdə saxlayıb. Dünyada ən çox sayda müsəlman əhalisi olan İndoneziya kimi nəhəng ölkə əsrlər boyu holland müstəmləkəçiliyinə qarşı mübarizə aparıb. Öz müstəqilliyini 1945-ci ildə elan etməsinə baxmayaraq illərlə davam edən müharibədən sonra Niderland yalnız 1949-cu ilin sonunda onun suverenliyini tanımağa məcbur olub. Həmin illərdə Niderland hərbçiləri tərəfindən İndoneziyada bir çox qətllər törədilib. Bunlar arasında 1947-ci ilin 9 dekabrında Yava adasının qərbində yerləşən Ravaqede kəndində (hazırda Balonqsari kəndi) 431 kəndlinin güllələnməsini qeyd etmək olar. İndoneziyanın müstəqillik müharibəsi illərində vəhşicəsinə qətlə yetirilmiş mülki şəxslərin yaxınları tərəfindən indiyə qədər Niderland məhkəmələrində iddialar qaldırılır.

Məlum həqiqətdir ki, Srebrenitsa soyqırımı 90-cı illərin Balkan müharibələrinin ən acı səhifəsidir. 1995-ci ilin iyulunda Bosniya və Herseqovinanın Srebrenitsa şəhərində 8300-dən çox insanın soyqırımına məruz qalmasının məhz BMT-nin Niderland sülhməramlı kontingentinin fəaliyyətsizliyi və qorxaqlığı nəticəsində baş verməsi məlum tarixi faktdır. Niderland Ali Məhkəməsinin 2013-2014-cü illərdə qəbul etdiyi qərarlarla ölkə yalnız 300-dən bir qədər artıq insanın qətlində günahkar olduğunu etiraf edib.

Niderland siyasi dairələrinin anti-Türkiyə mövqeyi özünü ən bariz şəkildə 2017-ci ilin martın ortalarında Türkiyənin Xarici İşlər naziri M.Çavuşoğlunun ölkəyə girişinə qadağa qoyulması, Ailə və Sosial Siyasət naziri, doktor Betül Sayan Kayanın isə polis tərəfindən güc tətbiq edilməklə Niderlanddan zorla çıxarılmasında göstərib. Hazırda Niderland cəmiyyətində ultra-sağ, ultra-xristian və radikal-şovinist meyillər artmaqda davam edir. Türkiyə və digər müsəlman əsilli vətəndaşlara qarşı təhqir və hücumlar, ölkə mediasında açıq islamofob təzahürlər, siyasətçilərin İslam dininin dəyərlərini təhqir etməsi, Avropa İttifaqı daxilində sonradan birliyə qoşulmuş ölkələrə qarşı ayrıseçkilik Niderlandın dövlət siyasətinin bir hissəsinə çevrilib.

Niderland deputatları unutmamalıdırlar ki, belə təxribatlara yol verərkən ölkələrinin Azərbaycanda və dünyadakı nüfuzuna, beynəlxalq münasibətlərdə ədalət və hüquq bərabərliyinə çağırışlar edən ölkə kimi imicinə, Azərbaycanda holland biznesinin mövcudluğuna, Azərbaycan-Niderland ikitərəfli əlaqələrinin gələcək inkişafına ağır zərbə vururlar. Onlar yaddan çıxarmamalıdırlar ki, Azərbaycanda Niderlandın xidmət, tikinti, nəqliyyat, sənaye, ticarət, rabitə, bank və sığorta sahələrini əhatə edən 130-dan çox şirkətinin qeydiyyatdan keçməsi iqtisadi əlaqələrin mövcud səviyyəsini və perspektivini nümayiş etdirən faktdır. 2018-ci ildə istifadəyə verilmiş Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin baş planı və ümumi layihəsi Niderlandın "Royal Haskoning" şirkəti tərəfindən hazırlanıb. Bunların müqabilində bütün dünyada terrora, kriminallığa meyilliyi ilə tanınan erməni lobbisinin təhriki ilə bu ölkədəki ultra-radikal, islamofob qüvvələrin anti-Azərbaycan mövqeyi, qərəzli və nifrət üzərində köklənmiş siyasət ölkələrimiz arasındakı bu əlaqələrə xələl gətirə bilər.

Niderland hökuməti parlamentdəki təxribatçı təşəbbüsləri müəyyən mənada neytrallaşdırmağa və sənəd layihələrini balanslaşdırmağa çalışsa da belə cəhdlərin davamlı olması ölkələrimiz arasında münasibətlərə mənfi təsir göstərməyə bilməz. Dövlətimizin başçısı İlham Əliyev Niderlandın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanın etimadnaməsini qəbul edərkən də Niderland Parlamentinin bu təxribatçı qərarlarına kəskin münasibətini onun diqqətinə çatdıraraq, parlamentdəki müzakirələr zamanı Niderlandın Xarici İşlər naziri S.Blokun balanslaşdırılmış yanaşma ilə çıxış etməsini təqdir etsə də, ümumilikdə belə ədalətsiz qərarların ölkələrimiz arasında normal əlaqələrin qurulmasına kömək etməyəcəyini xüsusilə vurğulamışdır. Ölkəmizin başçısı yeni səfirlə görüşündə deyib: "Parlamentin qəbul etdiyi qərardan ola bilsin, fərqli olan ölkənizin hökumətinin də öz mövqeyinin olduğunu başa düşürəm. Lakin bunun nə üçün baş verməsini bizim xalqımıza izah etmək çətin olacaq".

**Zahid Rza**

ARAŞDIRMA

# Kəndirdə yellənən gələcək

**Ekspertlər nə düşünür: uşaq intiharlarının səbəbləri sosial, yoxsa psixoloji problemlərlə daha çox bağlıdır?**

Son dövrlərdə azyaşlıların intiharı keçmiş SSRİ məkanında, o cümlədən Azərbaycanda artır. Bu, bizim üçün alışılmış bir hal deyil, yaxın tariximizdə belə halların çox nadir hallarda baş verdiyini nəzərə alsaq, narahatlıq yüksəkdir. Uşaq intiharlarının səviyyəsi ilə bağlı dəqiq statistika əldə etmək çətindir. Çünki intihardan baş verən ölüm halları çox vaxt başqa səbəblərlə qeydə alınır.

Azərbaycanda 2020-ci ilin birinci yarım ili ərzində 292 intihar hadisəsi qeydə alınıb, 2019-cu ildə isə bu rəqəm 585 olub. Uşaqlar isə intihar edənlərin 10 faizini təşkil edir. Bəs uşaqların özünə qəsd hallarının səbəbləri nədədir? Bu suala cavab axtarmağa çalışacağıq.

## Sosial, yoxsa psixoloji problemlər?

Ekspertlər azyaşlıların intiharının da böyüklərin intiharı kimi 2 əsas səbəbdən sosial və psixoloji səbəblərdən baş verdiyini düşünürlər. Bir qrup heab edir ki, bunun kökündə mənəvi-psixoloji problemlər, ailədə və uşağın yaxın ətrafında cərəyan edən hadisələr durur. Başqa bir qrup isə burda sosial problemlərin rolunu qabardır. Biz bu variantların hansının üstünlük təşkil etməsini araşdırmağa çalışaq. Əvvəlcə, problemin sosial tərəfindən baxaq, görək problem həqiqətən də yoxsulluqla bağlıdırmı?

Beynəlxalq statistika göstərir ki, intiharlar, o cümlədən uşaq intiharlarının yüksək səviyyəsi daha çox inkişaf etmiş ölkələr sayılan Britaniya, Norveç, Fransa, Yaponiya, İsveç, ABŞ, Almaniya kimi ölkələrdə qeydə alınır. Əksinə, ən az intiharlar yoxsulluq içində yaşayan ölkələrdə- bir çox Afrika və Asiya ölkələrində müşahidə olunur.

Burda qeyd etmək yerinə düşər ki, ən ağır sosial vəziyyət olan II Dünya Müharibəsi illərində intiharlar ən aşağı səviyyədə qeyd alınıb. Ümumiyyətlə, dünyada təxmini hesablamalara görə, uşaq intiharları daha çox imkanlı ailələrin uşaqları arasında olur. Nəticə etibarilə, problemi "kasıbçılıq" qədər bəsitləşdirmək gördüyünüz kimi doğru deyil.

İndi problemin digər tərəfinə- mənəvi-psixoloji aspekltərinə nəzər salaq. İntihar etmiş uşaqların bir çoxu əvvəldən yazıb qoyduğu məktubları analiz edəndə məlum olur ki, onlar heç də ağır maddi problemlərdən, istədikləri yeməkləri, paltarları əldə edə bilməmələrindən, hansısa maraqlı oyuncaqlarının olmamasından yox, sırf laqeydlik, soyuqluq, təhqir olunma, zorlama, qaçırılma, döyülmə kimi sırf mənəvi-psixoloji təzyiqlərdən bu yolu seçiblər.

## "Günahkar valideynlər və cəmiyyətin özüdür"

Pedaqoq İbrahim Cəfərovun fikrincə, uşaqların özünü öldürməsi sosial problemlərin yox, cəmiyyətdəki mənəvi-psixoloji problemlərlə bağlıdır: "İndiyə qədər maddi sahələrə o qədər diqqət ayırmışıq ki, mənəvi məsələlərə o qədər də əhəmiyyət verməmişik. Sovet dövründə əksinə idi deyə, belə hallar demək olar ki, yox idi. Son dövrlərdə cəmiyyətdə, hətta ailə daxilində zorakılıq və qətllərin sayı artır. Bu gərgin mühitdə böyüyən uşaq təbii ki, normal psixologiyaya malik olmayacaq, mənəvi problemləri olacaq. Üstəlik, uşaqların nəzarətsiz, "azad" buraxılması da problemi gücləndirir.

Pedaqoqun fikrincə, ailə şəxsiyyəti, fərdi cəmiyyətə hazırlayan xüsusi məktəbdir: "Normal bir ailədə, normal şəkildə, qaydalara, tələblərə uyğun böyüdülən uşaq cəmiyyətə də yararlı olacaq, xeyirli vətəndaş olacaq. Gərgin münasibətlər olan ailədə böyüyən, düzgün tərbiyə almayan uşaq isə intiharlar barədə daha çox düşünür. Hələ nəzərə alsaq ki, getdikcə maddi dəyərlərin mənəvi dəyərlərdən daha önə qoyulması tendensiyası davam edir, onda bu statistikanın da getdikcə artacağını düşünmək olar".

## "İntihar baş verən kimi "psixoloji problemdir"deyib işi bağlayırlar"

Uşaq psixoloqu Arzu Qarayeva isə deyir ki, Azərbaycanda azyaşlıların bir vətəndaş olaraq qəbul edilməməsi normal hal deyil: "Uşağın istəkləri, arzuları valideyn tərəfindən çox vaxt arxa plana atılır. Adi bir misal- tutaq ki, ana uşaq üçün paltar alır, amma onun fikrini dinləmir. Yaxud, bizdə ictimai nəqliyyat vasitələrində uşaqların ayrıca yer tutmasına imkan verilmir, o saat hər yerdən irad tuturlar ki, bəs "uşaqdır, alın qucağınıza, o niyə ayrıca oturacaq "zanit" eləməlidir?" Bütün bunlar uşaqların psixologiyalarında dərin iz buraxır. BMT tərəfindən Uşaq Konvensiyası qəbul olunub. Konvensiyanın mahiyyətində uşaqların da bir vətəndaş kimi qəbul olunmaları durur".

Mütəxəssisin sözlərinə görə, sivil ölkələrdə mövcud olan qaydaya görə intihar faktları toplanır, kateqoriyaya görə tədqiq edilir: "Amma Azərbaycanda intihar baş verən günü "psixoloji problemdir" deyib işi bağlayırlar. Sanki, bu ölkədə yaşayan uşaqların hamısı psixi problemi olan uşaqlardır".

## "İntiharların artmasında tv və internetin çox böyük rolu var"

Sosioloq jurnalist Elçin Bayramlının fikrincə, azyaşlıların intiharının artması çox təhlükəli bir gələcəkdən xəbər verir: "Burada əsas məsuliyyət valideynlərin üzərinə düşür. Əgər valideyn uşağa kifayət qədər vaxt və diqqət ayırmırsa, uşaq bunu özünə qarşı laqeydlik, sevgisizlik kimi qiymətləndirir. Ailə üzvlərindən kimsə spirtli içkilərə, narkomaniyaya qurşanıbsa, bu da azyaşlıya təsir edə və onu intihara sövq edə bilər".

Ekspertin fikrincə, burda əsas səbəblərdən biri də, ətrafdan aldıqları zərərli informasiyalardır: "Məlum olduğu kimi, indi hər evdə internetə bağlı kompüter, sputnik antena, DVD-pleyer var. Aqressiv planlı, qorxu yaradan teleistehsallar yayımlanan kanalların sayıheabı yoxdur, internetdə azad şəkildə milyonlarla belə filmlər və sair videomateriallar tapmaq olur, plagiat disklər və kasetlər hər yerdə qəpik-quruşa satılır.



Nəzarətsiz buraxılan uşaq istədiyi vaxt istədiyi şeyi izləyə bilir. Baxdığı proqramlar və filmlə, oynadığı virtual oyunlar onun alt şüuruna həkk olunur və psixologiyasını formalaşdırır. Müasir bədii və cizgi filmlərinin əksəriyyəti yalnız və yalnız həyata, insanlara nifrət aşılayır. Bəzi filmlərin sonunda da qəhrəman intihar edərək canını hər şeydən "qurtarır" və "əbədi rahatlıq tapır". Bütün bunlara baxan yeniyetmə və uşaq da bunu təkrarlamağa meylli olur".

## "Uşaqları özünü öldürmə hədinə çatdırırlar"

Hüquqşünas Leyla İsmayılova deyir ki, intihar edən azyaşlını özünü öldürmə həddinə çatdırma faktları da az deyil: "Özünü öldürmə dərəcəsinə çatdırma Cinayət Məcəlləsində ayrıca bir maddə kimi nəzərdə tutulub, ancaq bu maddə hər bir intihar faktına tətbiq oluna bilməz. Özünü öldürmə dərəcəsinə çatdırma konkret o hallarda tətbiq olunur ki, cinayəti törədən şəxs zərərçəkənin qanunla qorunan hüquq və mənafeyinə birbaşa qəsdlə zərbə vurur. Lakin heç də həmişə intihar hadisələrində hadisənin əsl səbəbini müəyyənləşdirmək olmur, çünki intihar hadisələrində özünəqapanmanın təsirindən hadisənin əsil səbəbini tapmaq çox çətin olur".

Müsahibimiz bildirir ki, bəzi hallarda intihar edənlər bunu qeyri-ixtiyari edirlər, yəni ölmək istəmirlər, amma buna məcbur edilirlər: "Hüquqda bu proses, "özünü öldürmə həddinə çatdırmaq" kimi tərif olunur. Ona valideynləri və yaxud da başqa biri fiziki və ya mənəvi təzyiq edə bilər. Əslində, fiziki zorakılıqdan daha təhlükəli olan mənəvi zorakılıqdır ki, çox vaxt buna əhəmiyyət verilmir".

Psixoloq və sosioloqların ümumi fikri əsasında problemin səbəblərini və qarşısını alma yollarının qısa konsepsiyasını hazırladıq.

Mütəxəssislərin fikrincə, uşaqların intihara əl atmasında aşağıdakı səbəblər əsas rol oynayr;

* Heç kimə lazım olmamaq duyğusu

* Valideynlərdən soyuq münasibət

* Ailəsinin onsuz daha xoşbəxt olacağına inam

* Ailəsinin ümidlərini boşa çıxarması

* Valideynlərinin boşanması

* Sərt cəzalandırması və alçaldılması

Bəs intihara meyl edən uşağı necə təyin etmək olar? Əgər aşağıdakıları edərsə;

* Ölum və intihar haqqında informasiyalarla maraqlanması, belə halların onun üçün adiləşməsi,

* Tənhalığa can atma istəyi,

* "Mən hec kimə lazım deyiləm", "onsuzda hec kim mənə görə kədərlənməyəcək" kimi fikirlər,

* Musiqidə, bədii ədəbiyyatda, oyunlarda ölüm, öldürmək kimi məqamlara daha cox maraq göstərməsi,

* Gizli, üstü örtülü vidalaşma cəhdləri (ona əziz olan əşyaların dostlara hədiyyə olunması, işlərinin tələsik yekunlaşdırılması.

Valideynlərə "qızıl məsləhətlər";

* Uşağınıza artıq böyümüş şəxsiyyət kimi münasibət göstərin.

* Ona daha cox inandığınızı büruzə verin

* Onun fərdi dünya görüşünə, xüsusiyyətlərinə hörmətlə yanaşın,

* Danışanda intihar haqqında işarələrinə ciddi yanaşın,

* "Özümü öldürəcəm", "hər şeydən bezmişəm" kimi hədələrinə "özün bilərsən", "buyur, yolun açıqdı" kimi cavablar verməyin,

* Onunla yaxın dost kimi söhbət edin, zamanın ən yaxşı dərman olduğunu başa salın,

* Onunla mümkün qədər çox vaxt keçirin, dərsləri, əyləncəsi, istəkləri ilə maraqlanın.

## Bu prosesi dayandırmaq üçün heç nə edilmir

Bu problemin qarşısının alınması üçün nə dövlət, nə də vətəndaş cəmiyyəti tərəfindən ciddi işlərin həyata keçirildiyini söyləmək olmaz. Bu haqda monitorinqlərə, tədqiqatlara və maarifləndirici tədbirlərə çox az rast gəlinmir.

Hüquq-mühafizə orqanlarından və Dövlət Statistika Komitəsindən tendensiyanın səbəbləri, miqyasi və nəticələri haqda bağlı qanedici məlumatlar almaq praktiki olaraq mümkün deyil. Bu sahəyə birbaşa məsul olan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi problemin qarşısını ala biləcək effektiv tədbirlər görmür.

...Neçə ildir yazılır, deyilir, amma nə eşidən var, nə də tədbir görən. Hər dəfə məsələ gündəmə gələndə aidiyyatı qurumlar "yeni qanun hazırlanır", "tədbirlər görürük" filan deyib vəziyyətdən çıxırlar. Soruşmaq ayıb olmasın, bəs hanı nəticəsi??!

Nəticəsi ortadadır- uşaqlarımız həyətlərdə yerində qaraj tikilməsi üçün ləğv edilmiş yelləncəklərdə yellənmək əvəzinə, boğazlarına keçirdikləri kəndirdə yellənirlər...

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

SƏS

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

11 dekabr

QARABAĞ AZƏRBAYCANDIR!

# Maradonanın qohumları onun 40 milyon avrolq mirası üçün savaşır..

Vəfat edən dünya futbolunun əfsanəvi oyunçusu Dieqo Maradonanın qohumları onun mirası üçün mübarizə aparırlar.

Qol.az "The Sun"a istinadən xəbər verir ki, argentinalı sabiq futbolçunun 40 milyon avrodan çox olan mirası üçün ən azı 16 nəfər müraciət edib. Söhbət Maradonanın Argentina, İsveçrə və Dubaydakı bank hesablarından, eləcə də dünyadakı bir çox maşın parkından və lüks daşınmaz əmlakından gedir.

Maradonanın 5 rəsmi övladı var, bu status üçün daha 7 nəfər müraciət edib. Bundan əlavə, 4 bacısı futbolçunun mirası uğrunda mübarizəyə qatılıb. Argentina qanunlarına görə, vəsiyyət olmadığı təqdirdə, ölənin varlığını bilmədiyi övladları da daxil olmaqla, bütün varislər bərabər miras hüquqlarına malikdirlər. Qohumluq faktını sübut etməyi bacarsalar, onlar digərləri ilə eyni miras hüquqlarına sahib olurlar.

"Maradonanın pulu uğrunda müharibə sadəcə bir rəqabət yox, əsl dünya çempionatı olacaq" - deyə "The Sun" "Buenos Aires"dən bir mənbədən sitat gətirərək yazıb.

Qeyd edək ki, Maradona 25 noyabrda 60 yaşında ürək tutmasından ölüb.



# SARS-CoV-2 virusunu məhv edən içkilər



Almaniyalı alimlər yaşıl çay, nar və mərcanı şirələrinin COVID-19 inkişafına səbəb olan SARS-CoV-2 virusunu məhv etmək potensialına sahib olduqlarını aşkarlayıblar. Təcrübə zamanı şirə və çay laboratoriya şəraitində infeksiyasının hüceyrə inkişafının qarşısını alıb. Tədqiqatçılar bu maddələri viral hissəciklərlə qarışdıraraq, qrip virusu, 5 tip adenovirus və SARS-CoV-2 əlavə ediblər. "MedikForum" saytının yazdığına görə, müşahidə otaq temperaturunda davam edib.

Müəyyən edilib ki, quş armudu şirəsi virus hissəciklərinin fəallığını təxminən 3 min dəfə, eyni zamanda, nar və gəndalaş şirəsi, həmçinin yaşıl çay bu fəallığı 10 dəfə azaldır. Ekspertlər müxtəlif şirələr və çayların vasitəsilə donuz qripinə təsir ediblər. Şirənin bütün növləri yalnız 5 dəqiqə ərzində virusların 99 faizini təsirsiz hala gətiriblər.

Araşdırmanın müəllifləri virusun ağız boşluğundan ağciyərlərə nüfuz etməsinin qarşısını almaq üçün insanlara ağızlarını mütəmadi olaraq yaşıl çay və qeyd olunan şirələrlə yaxalamağı məsləhət görürlər.

# Onlayn təhsilin uşaqlarda yaratdığı psixoloji təsirlər

***Pandemiya ilk növbədə bağçaya, məktəbə, universitetə gedənlərə həm ruh düşkünlüyü yaşatdı, həm də onları real əlaqələrdən uzaq saldı. Bu sözləri Xezerxeber.az-a onlayn təhsilin uşaqlarda yaratdığı psixoloji təsir barədə danışan psixoloq Vəfa Əkbər bildirib.***



O qeyd edib ki, birinci sinif şagirdləri vaxtlarını valideynləri ilə keçirdikləri üçün əhval-ruhiyyələrində xüsusi bir dəyişiklik olmur. Psixoloqun fikrincə, universitet tələbələri isə distant təhsil zamanı keçirilən vaxtı itirilmiş vaxt hesab edirlər: "Bu hal gənclərdə dərsdən yayınmaya gətirib çıxarır. Bir müddət əvvəl bir tələbənin bayrağı başına keçirib, situasiyanı yumora çevirməyə cəhd etdiyini şahidi olduq. Bu kimi vəziyyət ənənəvi tədris prosesində olduğu kimi onların real ünsiyyətdən təcrid olunmaqlarından qaynaqlanır". Psixoloq bu vəziyyətin qaçılmaz olduğunu, post-pandemiya dövründə onların real həyata adaptasiya olunmasında çətinlik yaranacağını vurğulayıb: "Valideynlər bu müddətdə uşaqlara "get, dərs oxu" deyə təkid etməməlidirlər. Onlara psixoloji dəstək göstərilməli, dərsə maraq oyatmaq lazımdır", - deyə V. Əkbər əlavə edib.

# Jordi Farre: "Qalib gəlsəm, Messi qalacaq"

"Barselona" futbol klubununda prezidentliyinə namizəd Jordi Farre Kataloniya təmsilçisinin kapitanı Lionel Messinin komandadakı gələcəyindən danışıb. Qol.az xəbər verir ki, o, bununla bağlı "Onda Cero"ya açıqlamasında deyib:

"Messi ilə ailəsinin "Barselona"da qalmaq istədiklərini bilirəm. Bunun üzərində işləyəcəyik. Seçkilərdə qalib gəlsəm, Messi klubla müqaviləsini uzadacaq. Bu, avtomatik olaraq 25 yanvarda baş verəcək". Qeyd edək ki, Messi ötən yay "Barselona"nı tərk etmək istəyib. Argentinalı hücumçunun klubu ilə müqaviləsi 2021-ci ilin yayında başa çatır.



# Məhəmməd Salah "Liverpul"un tarixinə düşdü

Futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsinin sonuncu - 6-cı turunda keçirilən "Midtyulland" - "Liverpul" oyunu (1:1) qonaqların futbolçusu Məhəmməd Salah üçün əlamətdar olub. Belə ki, misirli ulduz futbolçu "Liverpul"un UEFA Çempionlar Liqasındakı ən erkən qolunun müəllifinə çevrilib. Misirli hücumçu buna 55-ci saniyədə fərqlənməklə nail olub.

Salah həmçinin, ÇL-də vurduğu qolların sayını 22-yə çatdırıb və "Liverpul"un sözügedən turnirdəki bombardirinə çevrilib. Əvvəlki rekord Stiven Cerrarda məxsus idi - 21 qol.



# Kafedən pul və məişət əşyaları oğurlayan həbs olundu



Sumqayıtda kafedən pul və məişət əşyaları oğurlayan şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətdən AZƏRTAC-a bildiriblər ki, kafelərin birindən 200 manat məbləğində pul, televizor və noutbuk oğurlamaqda şübhəli bilinən R.Həsənov Sumqayıt Şəhər Polis İdarəsinin 3-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı rayon polis idarəsində araşdırmalar aparılır.

# Gəncədə mobil telefon oğurlayan şəxs yaxalanıb



Gəncədə mobil telefonlar oğurlayan şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətdən AZƏRTAC-a bildiriblər ki, iki nəfərin mobil telefonlarını oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş M.Bayramov Nizami Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində tutulub. Faktla bağlı rayon polis idarəsində araşdırmalar aparılır.

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**